

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**AĞALI: 30 il əvvəlin sonrası...**



8

SƏS
№ 144 (6827)
15 avqust 2023-cü il.
Qiyməti 60 qəpik

## Haqqa, ədalətə gedən yolun qalib LİDERİ!


4

# Ermənilərin uyduqduqları YALANLARIN SONU


13

## "Azərbaycan dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasındadır"


7

## Asiyanın raket yarışı


3

## Vladislav Şurıqin: "İrəvanın Bakıya təsir alətləri yoxdur"


11



## Tofiq Yaqublu baş trol olmağa hazırlaşır

12

## SOS: Anormalı normallaşdırmaq istəyirlər!


15

# Azərbaycanın sosial siyasəti dövlətin niyyətini və gücünü göstərir

## PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik"



Bəli, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq sosial siyasət Azərbaycan dövlətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirilib. Son 20 ildə Azərbaycan Prezidenti İlham Əliyevin "güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah" konsepsiyası Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Bəli, həqiqətən də bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik"."Əsl siyasət konkret, real iş görməkdir" - deyən Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində hazırda, ilk növbədə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm addımlar atılmaqdadır. "Bizim məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil dövlət qurmaqdır" - ölkə başçısının bu sözləri aparılan siyasətin ana xəttidir.Belə ki, cari ilin əvvəlində Prezident İlham Əliyevin imzaladığı sənədlərdən biri də məhz sosial sfera ilə bağlıdır. Dövlət başçısı 5 yanvar 2023-cü il tarixində "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam Azərbaycan dövlətinin ölkədə əhalinin rifah halının yaxşılaşdırılmasına necə böyük önəm verdiyini bir daha təsdiqləyir. Sənəd respublikamızda son beş ildə artıq dördüncü sosial islahat paketinin icrasına başlanmasını, yeni ildə yeni sosial islahat mərhələsinə keçidi təmin edir.

Xatırladaq ki, cari ilin dövlət büdcəsində sosialyönümlü xərclərə 15 milyard 219 milyon manat vəsaitin yönəldilməsi nəzərdə tutulub. Bu, 2022-ci illə müqayisədə 1 milyard 289 milyon manat və yaxud 9,3 faiz çoxdur. 2023-cü ildə əhalinin sosial müdafiəsi və sosial təminat xərcləri isə 4 milyard 416 milyon manat məbləğində proqnozlaşdırılır.Azərbaycanın sosial siyasətini fərqləndirən daha bir cəhətə diqqət yetirək. Biz ayrı-ayrı ölkələrin timsalında əhalinin bir sıra hallarda iqtisadi islahatlardan əziyyət çəkdiyinin şahidi oluruq. Azərbaycanın tətbiq etdiyi model isə ölkə vətəndaşlarını, ələlxüsus da həssas qruplardan olan aşağı gəlirli insanları iqtisadi islahatlar nəticəsində baş verən dəyişikliklərin mənfi təsirlərindən qoruyur. Bunu diqqətə çatdıran Prezident İlham Əliyev vurğulayıb: "İqtisadi və sosial sahə həmişə paralel getməlidir. O ölkələrdə ki, ancaq iqtisadi sahəyə diqqət verilir və sosial sahə kənarda qalır, orada insanlar iqtisadi islahatlardan çox böyük əziyyət çəkirlər. Bizim isə məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir".

### BİZİM SİYASƏTİN MƏRKƏZİNDƏ AZƏRBAYCAN XALQI DAYANIR, ONUN SOSİAL RİFAHININ GÜNDƏN-GÜNƏ YAXŞILAŞDIRILMASI DAYANIR

Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, bizim siyasətin mərkəzində Azərbaycan xalqı dayanır, onun sosial rifahının gündən-günə yaxşılaşdırılması dayanır. Sosial islahatlar bütün dövrlərdə və bütün ölkələrdə ən çətin, ağır gedişli və daha çox məsuliyyət tələb edən islahatlardır. Belə ki, 2023-cü il "Heydər Əliyev İli"nin ilk ayından uğurla başlayan və əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən davam etdirilən uğurlu iqtisadi siyasətinin əsasını səbəb və nəticə amili, ölçülü-biçili, hesablanmış proqramlarla maliyyələşmə, regional idarəetmə, mükəmməl iqtisadi siyasəti və infrastrukturun modernləşdirilməsi faktorları təşkil edir. Sosial siyasətin Azərbaycan modelində sosial xidmətlərin əsas istehsalçısı kimi dövlət, xərclərin bölüşdürülməsində isə dövlət büdcəsi mühüm rol oynayır, səbəblər aradan qaldırılır, nəticədə problemlər azalır, deinstitutlaşma siyasəti qanunvericilik səviyyəsində ardıcıl həyata keçirilir, ölkədə əlil və şəhid ailələrinin, qaçqın və məcburi köçkünlərin, veteranların, ahılların sosial şəraitinin yaxşılaşdırılması üçün onlara sistemli yardımlar, mənzillər, minik maşınları verilir, işsizliyin aradan qaldırılması üçün kiçik və orta sahibkarlıq inkişaf etdirilir, yoxsulluğun sıfıra endirilməsi istiqamətində daim iş aparılır, proqramlarla və regional idarəetməyə üstünlük verilir, messenatlıq və xeyriyyəçilik fəaliyyətinin genişləndirilməsi üçün münasib şərait yaradılır. Bu gün Azərbaycan vətəndaşı inamlı və sabahından arxayındır! O inanır ki, Azərbaycan dövləti hər an öz vətəndaşının arxasındadır. O inanır ki, Prezident İlham Əliyev hər an Azərbaycan vətəndaşının rifahının güclənməsi barədə düşünür və sosial müdafiə məsələsi daim onun diqqət və qayğısı altındadır.Belə ki, Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə səslənən rəqəmlər də təsdiqləyir ki, Azərbaycan davamlı inkişaf yolundadır.

### ÖTƏN 6 AYDA DA ÖLKƏMİZİN SOSİAL-İQTİSADİ GÖSTƏRİCİLƏRİ BİR DAHA GÖSTƏRİR Kİ, AZƏRBAYCAN ƏVVƏLKİ İLLƏRDƏ OLDUĞU KİMİ, ÖLKƏMİZDƏ YENƏ DƏ DAYANIQLI İNKİŞAF TƏMİN EDİLİB

Göründüyü kimi, Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə səslənən rəqəmlər də təsdiqləyir ki, bu gün Azərbaycan davamlı inkişaf yolu ilə irəliləyən ölkəmizin bütün sahələrdə göstəriciləri ildən-ilə artmaqdadır. Həyata keçirilən islahatlar, vətəndaşlarımızın sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar, qeyri-neft sektorunun inkişafı üzrə görülən işlər öz müsbət nəticələrini verməkdədir. Belə ki, əvvəlki dövrlərdə olduğu kimi, ölkəmizdə yenə də dayanıqlı inkişaf təmin edilib, qeyri-neft sektoru böyüyüb, Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş bərpa-quruculuq işləri geniş vüsət alıb, iqtisadi və sosial sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilib və uğurlar da ortadadır. Həmçinin ölkəmizin maliyyə imkanları da genişlənib ki, bu da müvafiq sahədə aparılan islahatların uğurlu nəticəsi və şəffaflığın təmin edilməsi ilə bağlıdır. Eləcə də dövlətimizin büdcəsinin 36 milyard manatı ötməsi ölkəmizin iqtisadi qüdrətinin göstəricisidir.Müşavirədə çıxış edən ölkə rəhbəri qeyd edib ki, qlobal iqtisadiyyatın həssas olduğu bir dövrdə Azərbaycan iqtisadiyyatında artım müşahidə olunub. İqtisadiyyatın qeyri-neft-qaz sənayesində artım neft-qaz sənayesindəki artımı üstələyib. Bu sahədə əlavə dəyər 2023-cü ilin birinci yarımilliyində 6,5 faiz artıb. Ümumi olaraq qeyri-neft sektorunda 3 faizdən çox artım müşahidə edilib.Bu il ölkənin sosial-iqtisadi inkişaf proqnozlarında neftin qiyməti hər barel üçün 50 ABŞ dolları nəzərdə tutulduğu halda, 2023-cü ilin ilk yarısında "Azeri Light" (CIF) markalı neftin bir barelinin orta qiyməti 82,84 ABŞ dolları təşkil edib. Bu artımla yanaşı, vergi və gömrük orqanlarında aparılan islahatlar və şəffaflığın təmin edilməsi nəticəsində 2023-cü ilin yanvar-may ayları ərzində vergi yığımları ötən illə müqayisədə 45 faiz və ya 2,6 milyard manatdan çox artıb. Bu isə öz növbəsində 2023-cü ilin ilk 6 ayında büdcə profisiti yaratmaqla büdcəmizi rekord həddə çatdırıb. Cari ilin ötən dövrü ərzində dövlət büdcəsinin gəlirlərinin proqnozlara qarşı əhəmiyyətli dərəcədə çox olması bu ilin dövlət büdcəsində əlavə maliyyə resurslarının yaranmasını və onların yenidən bölünməsini gündəmə gətirib. Bununla bağlı 2023-cü il iyunun 16-da "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanun qəbul edilib. Sənədə əsasən, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin təsdiq olunmuş 33353,3 milyon manat məbləğində xərcləri 3271,5 milyon manat və ya 9,8 faiz artırılaraq 36624,8 milyon manata çatdırılıb.Dürüstləşmə ilə 2023-cü il üçün təsdiq olunmuş büdcəyə 3 milyard manatdan çox vəsait əlavə olunub. Əlavə vəsaitin əhəmiyyətli hissəsi Azərbaycan Respublikasının işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi ilə bağlı xərclərə, müdafiə xərclərinə yönəldilib. Əlavə olunan 3 milyard manatın 1,8 milyard manatı işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işlərinə, 1,1 milyard manat isə hərbi gücümüzün artırılmasına yönəldilib. Dövlət büdcəsinə edilən son dəyişikliklərlə işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinə ayrılan vəsait 4,8 milyard manata, müdafiə və milli təhlükəsizlik xərcləri isə 6,05 milyard manata qaldırılıb. Bu isə hökumətin əsas prioritetinin əhalinin həmin ərazilərə qısa müddətdə geri qaytarılması və ölkə təhlükəsizliyinin təmini olması olduğunu göstərir.Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında, müsahibələrində sosial sahənin çoxşaxəli olduğunu qeyd edərək bildirir ki, Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik. Və Azərbaycan Prezidentinin imzaladığı sərəncamlar da sübut edir ki, Azərbaycan dövləti öz vətəndaşlarının sosial rifahını qorumaq üçün zəruri addımların davam etdirməkdə qərarlıdır.

### İQTİSADİ MÜSTƏQİLLİK SİYASİ MÜSTƏQİLLİK ÜÇÜN ƏSASDIR

Göründüyü kimi, bütün bunlar Azərbaycanın böyük iqtisadi imkanlara malik olduğunu təsdiqləyir. Çünki iqtisadi müstəqillik siyasi müstəqillik üçün əsasdır. Dövlət başçısı İlham Əliyev çıxışlarında da vurğuladığı kimi, bu da bizim uğurla həyata keçirdiyimiz müstəqil xarici siyasət kursunu aparmaq imkanının mühüm amilidir və Azərbaycan bu gün inamla inkişaf edən ölkələr sırasındadır.Bir sözlə, Azərbaycan bu gün inamla inkişaf edən ölkələr sırasında olmaqla, müstəqil, güclü iqtisadiyyata və maliyyə resurslarına malik, özünü təmin edən və mövqeyini müdafiə etməyi bacaran ölkədir. Bütün bunlar Azərbaycanın müstəqil siyasətinin nəticəsi, hər bir sahədə zəngin təcrübəyə malik olmasının təsdiqidir.

Bax, budur müasir Azərbaycan həqiqətləri. Bütün bunlar əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Və yuxarıda deyilənlərdən hasil olan nəticə ondan ibarətdir ki, iqtisadi müstəqilliyin təmin edilməsi Azərbaycanın tarixi nailiyyətidir. Bu gün heç bir xarici dövlət, heç bir beynəlxalq təşkilat ölkəmizlə diktat dili ilə danışmır və danışa da bilməz. Məhz, son illər ərzində görülən işlər, açılan istehsal müəssisələri bir daha onu göstərir ki, Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatını düzgün əsaslar üzərində qurmaqla dayanıqlı inkişafı təmin edir, ən əsası dünyaya yeni iqtisadi modeli nümayiş etdirir. Dövlət başçımızın dediyi kimi: "Biz tam iqtisadi müstəqilliyə nail olmuşuq".

**RƏFİQƏ KAMALQIZI**




RAKURS

# Asiyanın raket yarışı

## Şiddətli rəqabət texnologiyanın sürətləndirilməsinə səbəb olur

**Müxtəlif diapazonlu, həm ballistik, həm də kruiz raketləri təkcə aviasiyaya "əlavə" deyil, həm də onun əvəzlənməsinə (bir qayda olaraq, əlbəttə ki, qismən) çevrilir. Hansı ölkədə ki, aviasiya zəifləyir, belə bir əvəzetmə mütləq lazımdır. Digər hallarda, əksinə, raketlər yüksək performans xüsusiyyətlərinə görə hətta kifayət qədər yüksək keyfiyyətli təyyarələri əvəz edir.**

Asiya ölkələri bu yaxınlarda dünyanın iqtisadi, siyasi və hərbi mərkəzinə çevrildiyindən, burada bütün əsas silah sinifləri, o cümlədən raketlər ən fəal şəkildə inkişaf edir. Eyni zamanda, Asiyada yerli raket silahlanma yarışı var. Yaxın Şərqdə bu, İsrail ("Davidin varisləri və onların sapandları") və İran arasındadır ("Arxaik texnika, lakin tamamilə yenilməz ruh"). Cənubi Asiya və Uzaq Şərqdə də digər dövlətlər hər gün inkişaf edir.

### PAKİSTAN VƏ HİNDİSTAN

İranın İsrailə qarşı çıxmasında olduğu kimi, Pakistanın raket arsenalı onun hərbi qüvvələrinin çatışmazlıqlarını kompensasiya etməlidir. İran kimi, Pakistanın da raket inkişafı Çin və Şimali Koreya layihələri üzərində qurulub. Onların hamısı həmçinin mobil yerüstü buraxılış qurğularından buraxılır.

1980-ci illərin sonlarında Pakistanda 500 kq döyüş başlığı və 70 km uçuş məsafəsi




(Hatf-1A / B üçün 100 km) olan Hatf-1 bərk yanacaqlı idarə olunmayan ballistik raket yaradıldı. Sonra Abdali (Hatf-2) raketi təxminən 300 km uçuş məsafəsi ilə (döyüş başlığının kütləsinin 300 kq-a qədər azaldılması ilə - 450 km) hazırlanmışdır. Qəznəvi (Khatf-3) raketi, ehtimal ki, Çin əməliyyat-taktiki raketinin (OTR) DF-11 (M-11) texnologiyasından istifadə edərək yaradılmışdır, o, artıq 20 kt-a qədər tutumlu nüvə başlığını daşıya bilərdi, təxminən 300 km məsafə üçün. 1990-cı illərdə 1 ton ağırlığında döyüş başlığı və 900 km-ə qədər uçuş məsafəsi olan Şahin-1 (Hatf-4) OTR hazırlanmışdır.

Onun sonrakı inkişafı 1,5-2,5 min km məsafədə şərti və ya nüvə başlığı daşıya bilən Şahin-2 (Hatf-6) orta mənzilli ballistik raket (IRBM), Şahin-3 IRBM-nin uçuş məsafəsi təxminən 3 min km-dir. Şahin-3-ün inkişafı 2,2 min km məsafədə (döyüş başlığının kütləsi - 1,5 tona qədər) olan IRBM "Ababil" idi.

1990-cı illərdə Şimali Koreyanın Xvason-7 (Nodonq-1) OTR bazasında maye yanacaqla işləyən ballistik raketlərin Ghori (Hatf-5) ailəsinin yaradılmasına başlanılıb. "Qhori-1"in uçuş məsafəsi 1,5 min km, "Qhori-2" - 2 min km-ə çatır. Göründüyü kimi, hər ikisi həm nüvə, həm də adi döyüş başlıqları daşıya bilir.

Bundan əlavə, Pakistan səsdən sürətli uçuş sürətinə və peyk rəhbərliyinə malik "Babur" (Hatf-7) qanadlı raketləri ailəsini yaradıb, onlar həm nüvə, həm də adi döyüş başlıqlarını 750 km-ə qədər məsafədə daşımağa qadirdir. Babur-3 modifikasiyası sualtı qayıqdan buraxılmaq üçün nəzərdə tutulub, onun uçuş məsafəsi 450 km-dir. 600 km-ə qədər uçuş məsafəsi olan ALCM "Raad" ("Hatf-8") də var.

Bəzi ekspertlər Pakistan raketlərinin keyfiyyətinin və etibarlılığının mükəmməllikdən uzaq olduğunu düşünürlər, amma bu rəylər bəzən şübhə doğurur. Buna baxmayaraq, nüvə başlıqları daşımaq qabiliyyətinə görə Hindistan üçün çox ciddi manedir.

### HİNDİSTAN VƏ ÇİN

Digər tərəfdən Hindistan öz yarışını təkcə Pakistanla deyil, Çinlə də aparır. 1964-cü ildə Çinin ilk nüvə sınağından sonra Hindistanın nüvə proqramı nəzərəçarpacaq dərəcədə aktivləşdi. Nəticədə, 18 may 1974-cü ildə Racastan əyalətindəki Pokharan poliqonunda gücü 8 kt olan ilk nüvə partlayışı edildi. Bununla belə, sınaqdan keçirilmiş cihaz tam hüquqlu döyüş yükü deyildi. Beləliklə, Hindistan dünyanın altıncı və ya yeddinci nüvə dövləti oldu. 1980-ci illərdə Hindistanın raket proqramının faktiki başlanğıcı qoyuldu. 1980-ci ilin iyulunda özünün SLV-3 daşıyıcı raketindən istifadə edərək, özünün 40 kq ağırlığında süni yer peyki (AES) "Rohini" orbitə buraxdı. Ballistik raketləri isə 1960-cı illərdən sovet S-75 zenit-raket kompleksinin (SAM) zenit-idarə olunan raketləri (SAM) əsasında hazırlanıb. Lakin Hindistan raketlərinin ilk real sınaqları məhz 1980-ci illərdə başlayıb. 1988-ci ildə Prithvi-1 raketləri, 1989-cu ildə Agni-1 MRBM sınaqdan keçirilib.

1990-cı ildə Mysorda (Karnataka) uranın



zənginləşdirilməsi zavodu istifadəyə verildi. 1998-ci ilin mayında Poxaran poliqonunda bir anda beş nüvə yükü bomba partladıldı (ən güclüsü 45 kt idi).

Paralel olaraq Pakistanda da nüvə sınaqları həyata keçirildi. Bundan sonra Vaşinqton hər iki ölkəyə qarşı formal sanksiyalar tətbiq etdi, lakin onları çox tez "unudu". O vaxtdan bəri həm Hindistan, həm də Pakistan nüvə infrastrukturunu (hərbi daxil olmaqla) və raket proqramlarını inkişaf etdirməyə davam edirlər. Hindistanda, 1990-cı illərin sonlarında Prithvi-1 adlı, 150 km-ə qədər uçuş məsafəsi və 1 tona qədər döyüş başlığı kütləsi (və ya 12 kt nüvə gücü) olan raket istifadəyə verildi.

XXI əsrdə Hindistan getdikcə fövqəldövlət statusuna can atır - və əslində artıq dünyanın dördüncü hərbi gücünə çevrilib. O, artıq nüvə sınaqları keçirmir, lakin belə bir fürsətdən əl çəkmədiyini də nümayiş etdirir. Daha çox, o, ilk növbədə nüvə silahından istifadə etməyəcəyini bəyan etsə də, özünün nüvə tərksilahının mümkünlüyünü müzakirə etmir.

2001-ci ildə ölkədə Silahlı Qüvvələrin bütün növlərinin müvafiq hissələrini operativ nəzarəti altında birləşdirən Strateji Nüvə Qüvvələri Komandanlığı yaradılıb. Prithvi-2 taktiki raketləri (250 km-ə qədər uçuş məsafəsi və 750 kq-a qədər döyüş başlığı) silahlı qüvvələrin arsenalına qəbul edildi. Qeyd edək ki, silahlı qüvvələrdə bu raketlərin dəniz versiyası sayılan (350 km-ə qədər uçuş məsafəsi) Dhanuş raketi də var. O, yerüstü gəmilərdə yerləşdirilir və kreyserlərdə deyil, esmineslərdə və hətta freqatlarda deyil, patrul gəmilərində yerləşdirilir. Bu baxımdan Hindistan unikaldır. Çünki dünyanın heç bir yerində yerüstü ballistik raketlər yoxdur.

Bununla belə, 2016-cı ildə K-15 Saqarika sualtı ballistik raketləri ilə Arihant nüvə enerjili ballistik raket sualtı qayığı Hindistan Hərbi Dəniz Qüvvələrinin sərəncamına verildi. Bu raketlər Dkhanush ilə demək olar ki, eyni xarakterik xüsusiyyətlərə malikdir, yəni bu qayıq "tam hüquqlu" olmasa da Hindistanda öz dizaynına uyğun olaraq inşa edilən ilk nüvə sualtı qayığı sayıla bilər.

Prithvidən daha perspektivli nüvə silahı daşıyıcıları Agni ailəsi çəkisi 1 tona qədər olan döyüş başlıqları daşıyır, uçuş məsafəsi Agni-1 üçün 700 km, Agni-2 üçün 2500 km və Agni-3 üçün 3500 km-dir. Sonuncu Çinin demək olar ki, istənilən nöqtəsinə çata bilir. Uçuş məsafəsi 8000 km-ə qədər olan "Agni-5" qitələrarası ballistik raketi sınaqdan keçirilir. Təbii ki, sadalanan raketlərin hamısı həm nüvə, həm də adi döyüş başlıqları daşıya bilər.

Rusiyanın Yaxont raketinə əsaslanan PJ-10 Brahmos (Brahmaputra - Moskva üçün qısaldılmış) qanadlı raketini xüsusi qeyd etmək olar. O, 500 km-ə qədər uçuş məsafəsinə malikdir, lakin çox yüksək sürətə malikdir (təxminən 1 km/s) və son dərəcə aşağı hündürlükdə uçmağa qadirdir, bu da onu hava hücumundan müdafiə sistemləri ilə məğlub etməyi son dərəcə çətinləşdirir. Həm yerüstü, həm də yerüstü hədəflərə qarşı istifadə edilə bilər. Hindistan artıq 500-dən çox raket istehsal edib, onların ümumi sayı mini keçməlidir.

"Brahmos" daşıyıcı baxımından universaldır, buna görə də bütün növ təyyarələrdə istifadə edilə bilir. Quru qüvvələrinin yerüstü atıcıları olan dörd alay var. Hərbi Hava Qüvvələrində ən azı bir Su-30MKI eskadronu onlarla təchiz edilmişdir. Hərbi Dəniz Qüvvələrində Brahmos raketləri bütün esmineslərdə və freqatlarda quraşdırılır. "Brahmos"a əlavə olaraq Hindistanın öz Nirbey qanadlı raketi 1000 km-ə qədər məsafə qət edə bilər. Döyüş başlığının kütləsi 1,5 tondur, nüvə variantı nəzərdə tutulur. Ehtimal olunur ki, Nirbey də Brahmos kimi daşıyıcılar baxımından universaldır, lakin əslində yalnız yerüstü versiyası mövcuddur. Raket az sayda istehsal edilib və yerləşdirilib.

### TAYVAN və Çin Xalq Respublikası

Uzaq Şərq (Şərqi Asiya) ölkələrində yüksək inkişaf etmiş hərbi texnologiyalar var. Müvafiq olaraq, onların raketləri Hindistandan, hətta raket proqramları Şərqi Asiyadan böyüyən İran və Pakistandan daha yüksək xarakterik xüsusiyyətlərə malikdir. Tayvan Silahlı Qüvvələri yeganə düşmən hesab etdikləri Çin Xalq Azadlıq Ordusundan daha sürətlə silahlanır. Buna görə də, Tayvan Silahlı Qüvvələri üçün raket silahlarının inkişafı onların hərbi potensialındakı ümumi geriliyi üçün ən azı qismən kompensasiyadır.

Tayvanın bütün raketləri XXI əsrdə hazırlanıb. Yeganə ballistik raket 200 kq-a qədər çəkisi olan döyüş başlıqlarını 120 km məsafədə daşıya bilən Tien Çi taktiki raketidir. O, mobil başlatma qurğusundan buraxılır, baxmayaraq ki, minaya yerləşdirmək də mümkündür.

Gəmi əleyhinə raket Xiong Feng-2 əsasında 200 kq döyüş başlığı kütləsi və ən azı uçuş məsafəsi olan Xiong Feng-2E yer hədəf-



lərini məhv etmək üçün uçuş məsafəsi 600 km olan GLCM yaradıldı. Göründüyü kimi, yerüstü hədəflərə zərbələr endirmək üçün qanadlı raketləri kütləvi istehsalına başlanılıb.

### CƏNUBİ və ŞİMALİ KOREYA

Koreya Respublikası üçün praktiki olaraq yeganə düşmən nəhəng raket arsenalına malik olan KXDR-dir. Cənubi Koreyanın ballistik və qanadlı raketləri, Tayvan kimi, yalnız 21-ci əsrdə ortaya çıxdı. SSM-700K Haesong ailəsinin gəmi əleyhinə raketləri əsasında SLCM-lər uçuş məsafəsi 150 km (Haeson-2) ilə 200 km (Haeson-3, sualtı qayıqdan buraxılmış) ilə yaradılmışdır.

Cənubi Koreyanın yerüstü hədəfləri məhv etmək üçün nəzərdə tutulan raket arsenalının əsasını Hyunmu ailəsinin raketləri təşkil edir. "Hyunmu-1" taktiki ballistic raketləri olduqca primitiv idi. Nike-Hercules hava hücumundan müdafiə sistemindən Amerika SAM əsasında yaradılmış, 180 km məsafədə 500 kq-a qədər çəkisi olan döyüş başlıqlarını daşıyırdı. Rusiyanın "İskəndər"i əsasında hazırlanmış Hyunmu-2 raketləri daha müasirdir. Döyüş başlığının kütləsi 500 kq-dan 1 tona qədər və maksimum uçuş məsafəsi 300 ilə 800 km arasında olan bir neçə modifikasiyaya malikdir. Onun sonrakı inkişafı sınaqdan keçirilən Hyunmu-4 raketi. Hyunmu-3 səsdən sürətli qanadlı raketdir və ya mobil qurğulardan, sualtı qayıqlardan və ya şaquli buraxılışlı esmineslərdən buraxıla bilər. Döyüş başlığının kütləsi 500 kq, uçuş məsafəsi modifikasiyadan asılı olaraq 500 ilə 1500 km arasındadır.

Ümumiyyətlə, Asiya ölkələrində raket texnologiyası sürətlə inkişaf etməkdə davam edir. Atış dəqiqliyi, uçuş məsafəsi və döyüş başlıqlarının kütləsi artır. Sosial problemlərin həlli isə özünü gözləyir

**V.VƏLİYEV**

# Haqqa, ədalətə gedən yolun qalib LİDERİ!

Bəli, 2020-ci il, noyabrın 10-da Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgəri döyüşlərdə qəhrəmancasına döyüşə-döyüşə bərkiyərək Güclü Ordumuzun gücü ilə Azərbaycan tarixinə qələbələr yazmaqla, haqqa, ədaləta gedən yolun qalib lideri Ali Baş Komandan, Prezident İlham Əliyev tarixi qələbə nidasını qoydu. Və Vətən Müharibəsinin 44-cü günü - noyabrın 10-da Azərbaycan-Rusiya prezidentləri və Ermənistan baş nazirinin imzaladığı müharibənin dayandırılması haqqında tarixi müqavilə, şanlı qələbəmizin müqaviləsi, ərazi bütövlüyümüzün təmin olunması qələbəsinin qəbul olunması ilə xalqımızın 30 illik həsrətinə son qoydu. Elə həmin torpaqlarda 30 illik həsrətə son qoyan Qalib SƏRKƏRDƏ bildirdi ki, bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi: "Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azər

Bəli, Ali Baş Komandan bütün çıxışlarında, müsahibələrində bildirib ki, Azərbaycanın sülh və sabitliyin yaranması üçün təkcə təşəbbüslə çıxış etmir, eyni zamanda, bu məsələdə öz əməli töhfəsini verir. Prezident İlham Əliyev "Euronews" telekanalına müsahbəsində də bir daha vurğulayıb ki, əvvəlki müsahibələrində olduğu kimi, bu müsahibəsində də bildirib ki, biz müharibədə qalib gəldik, biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik: "Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddialarımız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik".Prezident İlham Əliyev qeyd edib ki, Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar: Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına, yoxsa Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər".Bəli, Azərbaycan Prezidenti Şuşadan verdiyi mesajlar



## İLHAM ƏLİYEV: "Onlar bilirlər ki, mən öz sözümə əməl edirəm"



### ERMƏNİSTANDAN VƏ ONUN HAVADARLARINDAN KONKRET SEÇİM TƏLƏB

### EDİR: YA 5 PRİNSİPİ QƏBUL EDİB SÜLH SAZİŞİ İMZALANMALI, YA DA "DƏMİR YUMRUQ" YENİDƏN İŞƏ DÜŞMƏLİDİR

Artıq İkinci Qarabağ müharibəsindən ötən iki il yarım keçməsinə baxmayaraq Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ətrafında danışıqlar hələ də davam edir. Azərbaycan qalib tərəf kimi prosesi öz diktəsi ilə idarə edir, Ermənistan isə müxtəlif bəhanələr gətirməklə öz aləmində vaxt uzadır. Amma bu ölkə anlamır ki, Azərbaycan torpaqlarını artıq işğaldan azad edib, nə "Dağlıq Qarabağ" var, nə də "status".İndi reallıq budur ki, Azərbaycan işğaldan azad etdiyi torpaqlarla bağlı özü qərar verir, Ermənistan kimi kiminsə qulu-vassalı deyil. Tərəflər arasında aparılan sülh danışıqları həm Rusiyanın, həm də Avropa İttifaqının vasitəçiliyi ilə reallaşır. Tərəflər arasında intensiv təmaslar yaradılıb. Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə 3, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsləri ilə 5 görüş keçirilib. Bu formatlarda tərəflər arasında keçirilən görüşlərdə müəyyən razılaşmalar əldə olunub, müvafiq bəyanatlar da imzalanıb. Praqa və Soçidə keçirilən son iki görüşdə imzalanan bəyanatlar isə digər sənədlərdən bir qədər fərqlənib. Düzdür, imzalanan bütün bəyanatlarda Azərbaycanın diplomatik üstünlüyü özünü göstərib. Son iki bəyanatda yer alan müddəalara əsasən isə Ermənistan Qarabağın Azərbaycan ərazisi olduğunu rəsmən təsdiqləyib. Qəbul edilmiş bəyanatlar da isbat etdi ki, danışıqlar tam olaraq rəsmi Bakının diktəsi fonunda keçir və sənədlər Azərbaycanın istəklərinə uyğun formada qəbul olunur.Göründüyü kimi, yenə də gündəliyi Azərbaycan Prezidenti müəyyənləşdirir. Bütün ağrılı məqamlara, işğalın ağır fəsadlarına, törədilmiş erməni vəhşiliklərinə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyev bölgənin gələcəyi naminə sülh gündəliyi təqdim edir. Həm də Ermənistanın düşdüyü sosial-iqtisadi bataqlıqdan qurtulması üçün yol göstərir.Konfransda İlham Əliyev bir daha aparılan danışıqlara toxunaraq vurğuladı ki, Praqa görüşünün kommunikesinə əsasən, Ermənistan ilk dəfə olaraq rəsmi şəkildə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıyıb və bu, həm də Azərbaycanın Qarabağ üzərində suverenliyi deməkdir.



*Ardı Səh. 5*

# Haqqa, ədalətə gedən yolun qalib LİDERİ!





Əvvəli Səh. 4

Həmçinin, Praqa bəyanatında keçmiş sovet respublikalarının inzibati sərhədlərini faktiki formalaşdıran 1991-ci il Almatı Bəyannaməsinə istinad edilir və bu da o deməkdir ki, Qarabağ erməniləri üçün hansısa statusun olması ilə bağlı hər hansı spekulyasiyadan söhbət gedə bilməz: ”Beləliklə, Avropa İttifaqı formatına qayıtmaq vacib idi, çünki biz Brüsseldəki bu qarşılıqlı əlaqələr sayəsində iki yola ayrılmağa razılaşdıq. Biri Ermənistan-Azərbaycan sülh müqaviləsi üzrə danışıqlar, ikinci yol isə bizim Qarabağdakı erməni azlığın nümayəndələri ilə iki məsələnin həlli ilə bağlı danışıqlarımız - onların hüquqları və təhlükəsizliyidir. Bu razılaşdırıldı və buna görə də demək istədiyim odur ki, bu, nəticəyönümlü tədbir idi. Praqadakı görüşün formatı isə bir qədər fərqli idi. Çünki Fransa Prezidenti Makron bizim qrupumuza qoşuldu və mən burada bu məsələni şərh etməyi dayandırıram. Bir daha deyirəm, Praqa görüşünün nəticəsi bizim üçün uğurlu idi. Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdı”.Bunun ardınca isə İlham Əliyev son zamanlar aparılan danışıqlara Fransanın müdaxilə etməsini və Azərbaycana qarşı qərəzli qətnamə qəbul etməklə Ermənistana dəstək göstərməsini faktlar əsasında ortaya qoydu. Eyni zamanda bildirdi ki, Ermənistan və onun havadarlarının istəyi sülh sazişinin imzalanması deyil, danışıqlar prosesinin uzanmasıdır: ”Sülh prosesi sülh sazişinin imzalanmasına gətirib çıxaracaq və onlar etiraf etməli olacaqlar ki, Qarabağla bağlı heç nə yoxdur və istər Moskvada, istər Soçidə və ya Brüsseldə qəbul edilən bütün sənədlərdə Qarabağa istinad edilmir. Ona görə də ola bilsin ki, Ermənistan tərəfi heç bir nəticəyönümlü ssenari olmadan prosesi sonsuz etmək üçün işğal zamanı da istifadə etdiyi köhnə taktikadan istifadə etmək qərarına gəlib. Beləliklə, əgər bu onların seçimidirsə, biz nə edə bilərik. Biz onları imzalamağa məcbur edə bilmərik. Bu o deməkdir ki, sülh müqaviləsi olmayacaq, bu o deməkdir ki, sülh olmayacaq və sülh yoxdursa, onda nə olacaq?!”.

Həqiqət budur ki, qalib tərəf kimi Azərbaycan sülh sazişinin imzalanması üçün əlindən gələni, öhdəsinə düşəni reallaşdırmağa tam hazır vəziyyətdədir. Yəni Prezident İlham Əliyev Vətən müharibəsində əldə edilən zəfərdən sonra bölgədə sülh və əməkdaşlığa nail olmaq üçün postmüharibə dövründə də sülh kontekstində regionla bağlı çətin geosiyasi maraqlar şəraitində diplomatik liderliyini, məharətini sərgiləməyə davam edir. Savaşdan sonra hərbi potensialını gündən-günə gücləndirən, sərhəddəki mövqelərini daha da möhkəmləndirən Azərbaycan sülhün, qarşılıqlı olaraq bir-birlərinin ərazi bütövlüyünü tanıyaraq Cənubi Qafqazda sabitliyin bərqərar olması üçün addımlar atır. Bununla yanaşı, prosesin alternativinin nə ilə nəticələnəcəyini də Ermənistana göstərməklə deyir ki, sülh sazişinin imzalanmaması Ermənistan üçün böyük fəlakət olacaq.

İlham Əliyevin bu mesajı Ermənistana 2 yol göstərir. Ya 5 prinsipi qəbul edib sülh sazişi imzalanmalı, ya da ”dəmir yumruq” yenidən işə düşməlidir. Təbii ki, 44 günə diz çökən Ermənistan bir daha ağır zərbə almaq istəməz. Bu, Ermənistanın hərtərəfli çöküşü, məhvi ilə nəticələnməsi deməkdir. Görünən odur ki, Ermənistan rəhbərliyi ölkənin daha acınacaqlı duruma düşməməsi üçün Azərbaycanın bütün tələblərini yerinə yetirməklə sülh sazişini imzalamağa məcburdur. Yəni Ermənistanın qurtuluşu sülh sazişindən keçir.

## PREZİDENT İLHAM ƏLİYEV ”EURONEWS” TELEKANALINA MÜSAHBƏSİNDƏ ƏVVƏLKİ MÜSAHİBƏLƏRİNDƏ OLDUĞU KİMİ YENƏ DƏ YÜKSƏK İNTELLEKT, MƏLUMATLILIQ, NATİQLİK BACARIĞI, DİPLOMATİK MƏHARƏT NÜMAYİŞ ETDİRMİŞDİ

Azərbaycan Prezidenti İlham Əliyev ”Euronews” telekanalına müsahibəsində bir daha bildirdi ki, biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik: ”Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddialarımız yoxdur”,-deyən dövlətimizin başçısı onu da bildirib ki, biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik: ”Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar. Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına, yoxsa Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər”.Azərbaycan Prezidenti İlham Əliyev ”Euronews” telekanalına müsahibəsində Ermənistandakı ermənilərə mesaj haqda sualı cavablandırarkən deyib: ”Mən heç zaman bu barədə düşünməmişəm, çünki həyatımda ilk dəfədir ki, mənə belə sual verilir. Mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik”,-deyən Azərbaycan Prezidenti İlham Əliyev onu da bildirib ki, onlara digər mesajım ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır: ”Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər, əgər müharibə başlasa, onlar Bakıya çatacaqlar. Müharibə bu hekayələri məhv etdi. Biz nə bu gün, nə də gələcəkdə daha bir müharibə istəmirik”.Prezident İlham Əliyev ”Euronews” kanalına müsahibəsində onu da bildirib ki, Qarabağdakı ermənilər qondarma liderlərinin arxasınca getməməlidirlər. Bu liderlər onlara daim yalan danışıblar: ”Qarabağ ermənilərı başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar. Onlar daha manipulyasiyanın girovu olmayacaqlar. Düşünürəm ki, onlar dinləsələr, məni anlayacaqlar. Onlar bilirlər ki, mən öz sözümə əməl edirəm”.

## ”DÜŞÜNDÜM Kİ, AVROPA İTTİFAQI ƏN YAXŞI VASİTƏÇİ OLA BİLƏR”

”Düşündüm ki, Avropa İttifaqı ən yaxşı vasitəçi ola bilər”. Bunu Prezident İlham Əliyev ”Euronews” kanalına müsahibəsində Şarl Mişelin iştirakı ilə Ermənistanla danışıqlara dair suala cavabında deyib.Dövlət başçısı bildirib ki, bu, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü idi: ”O, bizi dəvət etdi və biz dəvəti qəbul etdik. Çünki Azərbaycan ilə Avropa İttifaqının, eləcə də onunla Ermənistanın əməkdaşlıq səviyyəsini nəzərə alsaq, Avropa İttifaqının fəal olması təbii-dir. Düşündüm ki, Avropa İttifaqı ən yaxşı vasitəçi ola bilər, çünki bizim onunla münasibətlərimiz qarşılıqlı hörmətə, etimada və maraqlara söykənir. Bir sözlə, həmin təşəbbüs hazırda çox fəal dialoq formatına çevrilir, çünki biz təkcə Brüsseldə deyil, həmçinin Avropa Sülh Təşəbbüsü çərçivəsində də görüşürük. Sonuncu dəfə bu görüş Kişineuda baş tutdu. Bunu vacib hesab edirəm, çünki vəziyyətin durğun olmasına imkan vermirik, çünki durğunluq yaranarsa, onda biz hər hansı təhlükəli ssenaridən sığortalana bilmərik”.Beləliklə, həqiqət budur ki, qalib tərəf kimi Azərbaycan sülh sazişinin imzalanması üçün əlindən gələni, öhdəsinə düşəni reallaşdırmağa tam hazır vəziyyətdədir. Yəni Prezident İlham Əliyev Vətən müharibəsində əldə edilən zəfərdən sonra bölgədə sülh və əməkdaşlığa nail olmaq üçün postmüharibə dövründə də sülh kontekstində regionla bağlı çətin geosiyasi maraqlar şəraitində diplomatik liderliyini, məharətini sərgiləməyə davam edir. Savaşdan sonra hərbi potensialını gündən-günə



gücləndirən, sərhəddəki mövqelərini daha da möhkəmləndirən Azərbaycan sülhün, qarşılıqlı olaraq bir-birlərinin ərazi bütövlüyünü tanıyaraq Cənubi Qafqazda sabitliyin bərqərar olması üçün addımlar atır. Bununla yanaşı, prosesin alternativinin nə ilə nəticələnəcəyini də Ermənistana göstərməklə deyir ki, sülh sazişinin imzalanmaması Ermənistan üçün böyük fəlakət olacaq. Daha doğrusu, Ermənistanın hərtərəfli çöküşü, məhvi ilə nəticələnməsi deməkdir. Görünən odur ki, Ermənistan rəhbərliyi ölkənin daha acınacaqlı duruma düşməməsi üçün Azərbaycanın bütün tələblərini yerinə yetirməklə sülh sazişini imzalamağa məcburdur. Yəni Ermənistanın qurtuluşu sülh sazişindən keçir.

Bir sözlə, Prezident İlham Əliyev ”Euronews” telekanalına müsahibəsində əvvəlki müsahibələrində olduğu kimi yenə də yüksək intellekt, məlumatlılıq, natiqlik bacarığı, diplomatik məharət nümayiş etdirmişdi.Bu yerdə rusiyalı hərbi ekspert, ”Milli müdafiə” jurnalının baş redaktoru İqor Korotçenkonun Azərbaycan Prezidenti İlham Əliyevin dünya miqyasında siyasət adamı olduğunu vurğulayıb və bildirib ki, rusiyalı izləyicilər, siyasi ekspertlər İlham Əliyevin çıxışların erməni rəqibi Nikol Paşinyanla müqayisə edərkən gördülər ki, Azərbaycan Prezidenti erməni həmkarından bir baş yox, deyərdim iki baş yuxarıda idi: ”Bu rəy İlham Əliyevin dünya miqyasında siyasətçi olmasından ibarətdir. Bunu qəbul etmək lazımdır”.Bir sözlə, son 20 illik fəaliyyəti dövründə Qüdrətli Prezident, Güclü Lider, Müzəffər Komandan İlham Əliyev cənablarının həm müharibəni gedişində, həm də sonra beynəlxalq ictimai rəyi Azərbaycanın xeyrinə dəyişməyi necə bacardığının hər kəs şahididir.Bax, budur, həqiqət! Çünki bu gün qalib lider Prezident İlham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir, Paşinyan və Ermənistan yeni reallıqları qəbul etməli, həmin reallıqlarla barışmalıdır. Çünki Azərbaycan qalib ölkədir və bundan sonra diktə edən tərəf də hər zaman Azərbaycan olacaq! Hər kəs həqiqəti bilməli və görməlidir. Çünki bu xalq öz qalib lideri İlham Əliyevlə yenilməzdir. Müzəffər rəhbər İlham Əliyev də onun ətrafında sıx birləşmiş xalqı ilə güclüdür.

***RƏFİQƏ KAMALQIZI***



# Ermənistan və separatçılar eskalasiya yolunu seçirlər

**Ermənistanın Laçınla sərhəddə başlatdığı "humanitar yük" şousu davam etdiyi zamanda Qarabağda gərginlik də müşahidə olunmaqdadır. Qarabağdakı separatçıların davranışları, Ermənistanın oyunları vəziyyəti kritik səviyyəyə gətirir. Eyni zamanda, Ermənistanın və erməni lobbisinin Azərbaycana qarşı kampaniyası Bakıya qarşı təzyiq elementləri ilə müşayiət olunur. Bəzi beynəlxalq təşkilatlar "Qarabağdakı ermənilərin blokadası" və "Qarabağda humanitar böhran" nağıllarına uyur, Azərbaycana qarşı bəyanatlar səsləndirirlər.**




Analitiklərin qənaətincə, gərgin vəziyyət bölgədə eskalasiya risklərini artırmaqdadır. Lakin Ermənistanın yeni müharibəyə gücünün olmadığı faktı da diqqətlərdən yayınmır. Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktor müavini, politoloq Fuad Çıraqov deyib ki, bir il bundan əvvəlki vəziyyətə baxanda, indi prosesin sonuna daha yaxın olduğumuzu görürük:

"Amma vəziyyət indi daha gərgindir. Məsələ sonuna yaxınlaşdıqca Ermənistan, Qarabağdakı separatçı rejim, ermənilərə havadarlıq edən qüvvələr, beynəlxalq oyunçular bütün resurslarını səfərbər ediblər. Azərbaycana qarşı ictimai təzyiqləri artırmaqdadırlar. Mayın 28-də cənab Prezident İlham Əliyev Qarabağdakı ermənilərlə bağlı iki seçim qoydu. Ondan sonra ermənilər anladılar ki, vaxt daralıb, iki yoldan birini seçmək lazımdır. Görünən odur ki, Ermənistan və separatçılar eskalasiya yolunu seçirlər. Lakin Azərbaycan Ordusundan qorxduqları üçün müxtəlif oyunlara əl atırlar, şoular düzənləyirlər".

Ümumiyyətlə, media kampaniyaları, "məzlum erməni" oyunları, şoular Ermənistanın yeritdiyi siyasətin tərkib hissəsidir. Müharibədən sonra Nikol Paşinyanın partiyası yenidən seçiləndən sonra hökumət olaraq üzərlərinə götürdükləri vəzifə və hədəflərə uyğun olaraq siyasət həyata keçirirlər. Paşinyanın seçki strategiyasında belə bir hədəf var idi: "Qarabağ ermənilərinin xilasına nail olmaq üçün ayrılmaq". İndi apardığı siyasət budur.

Məqsəd odur ki, Ermənistan ərazi iddiasından, işğalçılıqdan əl çəkmək istəmir. Hərbi gücləri yoxdur, Azərbaycanla döyüşə bilməyəcəklərini, müharibənin onlar üçün son olacağını anlayırlar. Hüquqi əsasları da yoxdur, çünki bütün dünya Qarabağı Azərbaycan ərazisi kimi tanıyır, qəbul edir. Hətta Paşinyanın özü də məcbur olub Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını bir neçə dəfə bəyan edib. Burada yeganə variant mənəvi əsaslandırmadır ki, Ermənistan bu siyasətə keçib. Əsas gətirirlər ki, Azərbaycanın tərkibində yaşaya bilmirlər, bu səbəbdən də ayrılmalıdırlar. Bu, beynəlxalq aləmdə geniş tətbiq edilməsə də, "xüsusi hal" var. Məsələn, Kosova məsələsindəki keys bu qəbildəndir. İndi Ermənistan bu "xüsusi hal"ı təkrarlamağa çalışır. Bu, 2021-ci ildən İrəvanın atdığı addımların bir hissəsidir.





Eyni zamanda, Ermənistanın daxilindəki vəziyyət də İrəvanın belə siyasət yürütməsinə zəmin yaradır. Sentyabrda İrəvanda mer seçkiləri keçiriləcək ki, bu, Paşinyan hakimiyyəti üçün çox önəmli seçkilərdir. Sosioloji sorğuların nəticələrinə görə, Paşinyan iqtidarının mövqeləri çox zəifləyib. Xüsusilə, şəhərdə Paşinyan nüfuzunu itirib. Bu günlərdə bir sorğunun nəticəsinə görə, Ermənistan əhalisinin 67 faizi Paşinyana etibar etmir. Nikol isə belə həssas məqamlarda hər zaman radikal millətçi oyunu oynayır. Ola bilsin ki, İrəvan mer seçkilərinədək bu şou-kampaniyanı davam etdirsin. Seçki bitdikdən sonra İrəvanın siyasətində dəyişiklik ola bilər.

Əlbəttə, təkcə Paşinyan komandasının planı deyil. Azərbaycana qarşı hazırda psixoloji təzyiqlər var, informativ təzyiqlər gücləndirilib. Bir çox xarici siyasətçilər, təşkilatlar müxtəlif bəyanatlar verir. Onlar erməni lobbisinin təsirləri ilə hərəkət edirlər. Amma müşahidə edilən odur ki, Azərbaycana təzyiqlər effekt vermir. Məsələ burasındadır ki, Azərbaycana təzyiqlər ermənilərin gözlədiyi formada edilmir. Məsələn, ABŞ Dövlət Departamentinin bəyanatı oldu, amma orada Azərbaycandan sərt şəkildə nəsə tələb edilmədi. Təbii ki, erməni lobbisinin təsiri, gücü var. Eyni zamanda, erməni sevdalılar çoxdur. Amma onu da anlayırlar ki, bu prosesdən yararlanan kimdir.

Bütün hallarda, rəsmi Bakının mövqeyi bəllidir. Azərbaycan milli maraqlarına əsaslanan siyasətini bundan sonra da davam etdirəcək və hansısa təzyiqlər Bakını mövqeyindən geri çəkməyəcək.

***Afət Tahirqızı***

# "Dünya birliyi Ermənistanı Zəngəzur dəhlizi layihəsini icra etməyə məcbur etməlidir"

## MÜRACİƏT




"Biz tələb edirik ki, dünya birliyi Ermənistanı Zəngəzur dəhlizi layihəsini icra etməyə məcbur etsin". SİA-nın xəbərinə görə, bu, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının (QHT) beynəlxalq ictimaiyyətə ünvanladığı müraciətində əksini tapıb.

"30 ildən artıq blokada şəraitində yaşayan Naxçıvan əhalisinin ümidi Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın digər bölgələri ilə quru əlaqəsinin yaradılması, regionda kommunikasiyaların açılmasıdır. Zəngəzur dəhlizi açılmalı, blokada aradan qaldırılmalıdır. Necə ola bilər ki, Azərbaycan hökuməti Qarabağda yaşayan erməni sakinlər üçün Laçın yolu ilə kommunikasiya imkanları yaradır, üstəlik Ağdam-Xankəndi yolunu da təklif edir, ancaq Ermənistan Naxçıvan əhalisinin hətta humanitar əsasda belə Azərbaycanın digər hissəsinə keçməsinə şərait yaratmır. Biz tələb edirik ki, dünya birliyi Ermənistanı Zəngəzur dəhlizi layihəsini icra etməyə məcbur etsin!




Biz tez-tez humanitar əsasda Beynəlxalq Qırmızı Xaç Komitəsinin Laçın yolu ilə daşımalar həyata keçirdiyini müşahidə edirik. Beynəlxalq Qırmızı Xaç Komitəsinə də çağırış edirik ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiyanı təmin etsin", - müraciətdə qeyd edilib.



# "Türkiyənin işlək təkərlərini heç kim dayandıra bilməyəcək"

**Prezident Rəcəb Tayyib Ərdoğan bütün sınaqlardan uğurla çıxan Türkiyəni heç kimin yolundan döndərə, işlək təkərlərini dayandıra bilməyəcəyini bir daha bəyan etdi. SİA bu barədə Tükiyə saytlarına istinad edir. Sədri olduğu Ədalət və İnkişaf Partiyasının 22-ci ildönümü münasibətilə paylaşdığı videomüraciətində R.T.Ərdoğan deyib: "AK Partiyanın yola çıxmasının 22-ci ilidir. Girdiyi hər seçkidə qalib gəldi. 31 mart 2024-cü ildə keçiriləcək yerli idarəetmə seçkilərinə də gecə-gündüz çalışaraq hazırlaşırıq.**

6 Fevral zəlzələlərindən zərər çəkmiş şəhərlərin bərpası üçün Türkiyə 104 milyard dollarlıq yüklə üzləşdi. Bu ağır yükün altına girərkən heç kimin haqqına laqeyd qalmadıq və heç kimin ümidini cavabsız qoymayacağıq. Bütün vətəndaşların rifah səviyyəsini daha da yüksəltmək üçün çalışırıq.

Ölkəmiz bir sıra çətinliklərdən keçib. Qaranlıq ssenarilərlə hazırlanan bütün ictimai hadisələr, iqtisadi tələlər, çevriliş cəhdi və terror hücumlarını birlik və həmrəyliklə aşdıq. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün əzmlə çalışdıq. Heç kim Türkiyəni müvəqqəti gündəmlərdə boğa, onu yolundan çıxara və iş təkərlərini dayandıra bilməyəcək".



# Həm ASAN, həm ABAD, həm də DOST...



Bu gün Azərbaycan yüksək inkişaf tempinə görə dünyada lider mövqeyə çıxıb. Ölkədə dəqiq hədəflərə hesablanmış iqtisadi inkişaf xətti uğurla davam etdirilir. Yeni inkişaf erasının başlıca istiqamətləri ölkəmizin bütün mövcud potensialdan səmərəli istifadə etməklə regiondakı mövqeyini əhəmiyyətli şəkildə dəyişdirib və möhkəmləndirib. Hazırda ölkəmizin sürətli iqtisadi inkişafı sosial sferada çoxşaxəli islahatlar aparmağa, dünya təcrübəsindən uğurla çıxmış təkmil mexanizmləri tətbiq etməyə imkan verir. İqtisadiyyatda həyata keçirilən, köklü dəyişikliklər makroiqtisadi sabitliyi təmin etməklə bərabər əhalinin sosial müdafiəsini gücləndirmək üçün də möhkəm zəmin yaradır. Ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca məqsədlərindən biri də əhalinin etibarlı sosial müdafiəsinin təmin edilməsidir. İqtisadiyyatın ardıcıl və dinamik inkişafı, həyata keçirilən köklü dəyişikliklər dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə geniş yol açaraq əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq üçün möhkəm zəmin yaradıb.

Artıq respublikamızın iqtisadi inkişafı elə bir mərhələyə çatıb ki, indi nəinki mövcud problemlərin həlli, hətta yeni sosial layihələrin həyata keçirilməsi üçün dövlətin kifayət qədər maliyyə imkanları var. Hər ilin sonuna yaxın parlamentdə dövlət büdcəsi layihəsinin müzakirəsi zamanı bunun şahidi oluruq. Ölkə başçısı cənab İlham Əliyevin sosial sahəyə diqqətinin nəticəsidir ki, hər il dövlət büdcəsi təsdiq olunarkən sosialyönümlülük prioritet olaraq qalır. Dövlət başçısı bütün regionlarda sosial ədalətə söykənən müasir idarəetmə qaydalarının tətbiq olunmasını tələb kimi qarşıya qoyub. Bu gün uğurla icra olunan Dövlət Proqramların əsas məqsədi bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsinə xidmət edir.

Son illər ölkəmizin bütün bölgələrində quruculuq-abadlıq işləri daha geniş vüsət alıb. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərlə yanaşı, ölkənin digər bölgələrinə də səfərlər edir. Uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində bölgələrimizin siması əhəmiyyətli dərəcədə dəyişib. Bölgələrlə paytaxt arasında fərq minimuma endirilib. Dövlət başçısının bölgələrimizə mütamadi səfərləri bir daha göstərir ki, regionların inkişafı, əhalinin sosial şəraitinin yaxşılaşdırılması daim cənab İlham Əliyevin diqqət mərkəzindədir. Prezident İlham Əliyevin avqustun 7-də Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfəri, görülən işlərlə tanışlığı, bir sıra mühüm sosial obyektlərin açılışında iştirakı bir daha təsdiq etdi ki, işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinin aparılması ilə yanaşı bütün bölgələrimiz diqqət və qayğı ilə əhatə olunub.

Regionların inkişafı ilə bağlı vəzifələrin icrası sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, iş yerlərinin açılmasına və əhalinin məşğulluğunun artırılmasına, yoxsulluq səviyyəsinin azaldılmasına təkan verir. Göründüyü kimi, Azərbaycan dövlətinin siyasətinin mərkəzində ölkə vətəndaşlarının maraqları dayanır. Bu gün ölkəmizin həm işğaldan azad edilmiş ərazilərində, həm də digər bölgələrində dünyada Azərbaycan brendi kimi nüfuz qazanan



"ASAN xidmət", ABAD, DOST mərkəzlərinin yaradılması təqdirəlayiq hal kimi dəyərləndirilir. Prezident İlham Əliyev Bərdə rayonuna səfəri çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Qarabağ Regional DOST Mərkəzinin açılışında iştirak etdi. Bildiyimiz kimi, hazırda Azərbaycanda 6 DOST Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə indiyə kimi bir milyondan çox insana xidmət göstərilib. Vətəndaşların xidmətlərdən məmnunluq dərəcəsi 98 faizdən yüksəkdir. DOST mərkəzləri vasitəsilə tam şəffaf və vətəndaş məmnunluğu prinsipləri əsasında məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində "bir pəncərə" prinsipi ilə 15 istiqamət üzrə 159 xidmət göstərilir. 2025-ci ilədək mərkəzlərin sayının 17-yə, yerlərdə xidmətlərin təşkili məqsədilə filialların sayının 55-ə çatdırılması planlaşdırılır. Qarabağ Regional DOST Mərkəzində də gün ərzində orta hesabla 650-700 vətəndaşın qəbulu nəzərdə tutulur. Bu da bu bölgədə yaşayan insanların rahatlığı baxımından olduqca əlverişlidir.

Qarabağ və Şərqi Zəngəzur da daxil olmaqla, regionlarda aparılan quruculuq işlərinin geniş vüsət alması, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsinə xidmət edir. Bütün görülən işlər Azərbaycanın sosial-iqtisadi inkişafına böyük töhfələr verir. Bütövlükdə, hər bir sahədə qazanılan nailiyyətlər ölkəmizin gücünü artırır, beynəlxalq müstəvidə də mövqeyini möhkəmləndirir.

*Şəmsiyyə Əliqızı*

## "Azərbaycan dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasındadır"



Ermənistan Azərbaycanın işğaldan azad edilən ərazilərinə 1 milyondan çox mina yerləşdirib. Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" sosial şəbəkəsində yazıb. O qeyd edib ki, 2020-ci ilin noyabrından indiyədək 300-dən çox azərbaycanlı mina qurbanı olub. "Azərbaycan dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasındadır. Ermənistanın mina terroru davam edir", - H.Hacıyev vurğulayıb.

## "Sən haradan maaş alırsansa, ora qulluq edir, onları müdafiə edirsən, ay Cəmil?!"

"Bildiyimiz kimi, Milli Şuranın sədri Cəmil Həsənli deyib ki, Demokratiya uğrunda Dünya Hərəkatı (World Movement for Democracy Team) da Qubad bəyin müdafiəsinə qoşuldu. Onlar bu gün yaydıqları müraciətdə göstərirlər ki, korrupsiya ilə mübarizə üzrə tanınmış araşdırmaçı Azərbaycandan olan Qubad İbadoğlu hücuma məruz qalıb və hakimiyyət tərəfindən həbs edilib. Mən düşünürəm ki, Cəmil Həsənli özünü də belə bir aqibətin gözləməsini nəzərdə tutub və qorxuya düşüb". Bu sözləri SİA-ya açıqlamasında deputat Tahir Kərimli deyib.Onun sözlərinə görə, rəsmi istintaq orqanları ittiham irəli sürdü: "Bu insanı xaricə elə təqdim ediblər ki, o, saxta pul kəsir.



Ona görə də bir sıra ziyalılar, xarici və ictimai təşkilatlar da elə bilirdilər ki, doğrudan da, Qubad İbadoğluna irəli sürülən ittiham saxta pul kəsməkdir. Amma orada birmənalı şəkildə yazılır ki, söhbət təkcə saxta pul kəsməkdən yox, onu əldə etməkdən və dövriyyəyə buraxmaqdan gedir. Rəsmi şəkildə onun evindən saxta pul tapılıb. Bir qədər gözləmək lazımdır ki, məlumatlar daha dəqiq araşdırılsın. Rəsmi qanunu gözləmək lazımdır. Hələ ki, mülahizələr səsləndirilir.Cəmil Həsənli vaxtilə deputat olduqda iqtidar yönümlülükdə dəridən-qabıqdan çıxırdı. İndi də iqtidara qarşı ləkələyici məlumat yaymaq üçün dəridən-qabıqdan çıxır. Ona görə də mən bunu birmənalı şəkildə pisləyirəm".Deputat sözlərinə belə davam edib: "Cəmil Həsənlinin bu canfəşanlığının məqsədi xaricdən maliyyələşmədir. O özü də dəfələrlə etiraf edib ki, Sorosdan maaş alıb. Deməli, sən haradan maaş alırsansa, ora qulluq edir, onları müdafiə edirsən, ay Cəmil?!Mən bütün hamını səbirli olmağa, rəsmi orqanların bəyantlarını izləməyə və buna uyğun da münasibət bildirməyi təklif edirəm".

*Ayşən*

## Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinə mane olan səbəb və bəhanələr hansılardır?

"Azərbaycan 44 günlük savaşdan qalib çıxıb. Torpaqlarımızı işğaldan azad etmişik. 10 noyabr üçtərəfli bəyanatının əksər müddəaları yerinə yetirilib. Lakin rəsmi İrəvan sülh müqaviləsini imzalamağı yubadır". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Elman Cəfərli deyib. Onun sözlərinə görə, Azərbaycan sərhədlərin delimitasiyası və Ermənistan ordusunun qalıqlarının Qarabağdan çıxarılmasını, Zəngəzur dəhlizinin açılmasını tələb edir: "Bakının planında Qərbi Azərbaycanlıların doğma yurdlarına qayıdışını təmin etmək də var. Praqa bəyanatı ilə tərəflər bir-birinin ərazi bütövlüyünü tanıyıb. Lakin Azərbaycanla Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanmasına mane olan qüvvələr var. Bunlar Fransa başda olmaqla Cənubi Qafqazda marağı olan dövlətlər və Ermənistanın revanşist qüvvələridir".



Elman Cəfərli sözlərinə belə davam edib: "Ermənistan tərəfi (daha çox revanşist qüvvələr) Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmirlər. Baş nazir Nikol Paşinyan isə bunun qaçılmaz olduğunu dərk edir. O bilir ki, Azərbaycan lideri Qarabağ bə Zəngəzur məsələsində güzəştsiz siyasətini davam etdirəcək. İrəvan Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıyan sənədə imza ata bilər. Ancaq buna zaman lazımdır. Bütövlükdə ermənilər bilir ki, bu proses corab söküyü kimi ardıcıl gedəcək. Qarabağ Azərbaycanın bir hissəsi kimi tanındıqdan sonra sərhədlərin delimitasiyası və demarkasiyası baş tutacaq. Sonra Zəngəzur dəhlizi reallaşacaq. Ardınca azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı başlanacaq. Ermənistan bu "zənciri" bir yerdə qırmaq istəyir. Sülh müqaviləsinin gecikdirilməsi də bununla bağlı vaxt qazanmaq niyyəti güdür".

*A.Vəli*



# AĞALI: 30 il əvvəlin sonrası...

OÇERK

**Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan üç rayondan birinin-Zəngilanın kəndidir Ağalı. O Zəngilan ki, kiçik Qafqaz dağlarının cənub tərəfində Arazboyu ərazidə sərt quruluşa malik sıldırımlı qayaları özünə məskən seçən bu qədim yurdun əlindən alınmış əzəmətini 2020-ci ilin payızında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev və Milli Ordumuz ona qaytardı.**

Hələ qədim dövrlərdən üzübəri bağrından axan çayların əmələ gətirdiyi dərin dərələrdən, Oxçu və Bərgüşad çayları arasında füsunkar Süsən dağı silsiləsindən, bu silsilədən cənub-şərqə doğru enərək qarşıda uzanan ucsuz-bucaqsız Ağoyuq düzündən, şimal-şərqində Qarabağ silsiləsi və bu silsilənin getdikcə alçalaraq əmələ gətirdiyi Geyən çölündən, ümumilikdə bir füsunkarlıq abidəsi Zəngilandan düşmən ayağı kəsildi. Dünyada II, Avropada I nadir çinar meşələrindən neçəsinə köksündə yer verən çinarlar diyarı, dağ vüqarlı, çinar əzəmətli Zəngilanın hüriyyəti özünə qaytarıldı. Dağlıq hissələrində 1800-2000 metr hündürlükdə olan enliyarpaqlı meşələrindən aşağıya doğru endikcə subalp və alp çəmənlikləri ilə təbiətin özünün özünə meydan oxuduğu bir möcüzənin fonunda 20 oktyabr möcüzəsi baş verdi, Zəngilan azad oldu. Bu azadlıq nəğməsi kəndbəkənd Zəngilanın bütün ellərinə yayıldı. Ağalı da onlardan biri idi. Hansı ki, çox keçməyəcək, o, həm "ağıllı kənd"ə çevriləcək, həm də Böyük Qayıdışın ilki olacaqdı...

## Müharibə meydanından tikinti, oradan isə həyat meydanına...

Müharibə bitməmişdi, azad olunan ərazilərimizdə artıq bərpa işlərinə başlanmışdı. Həmin ərazilər ki, artıq onların mina təhlükəsizliyi təmin edilmişdi.

Dövlətimizin başçısı deyirdi: "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər. Biz azad edilmiş torpaqları necə görmək istəyirik? Biz insanlara, oraya qayıdacaq insanlara hansı şəraiti yaratmaq istəyirik? Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq - təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf".





30 ilə yaxın bir dövrdə işğal altında olması ilə dünyanın bütün yeniliklərindən, texnologiyanın inkişafından kənarda qalan, sonda azadlığına qovuşan torpaqlarımızın hər biri bu yeniliklərdən pay almağı haqq edir. 2021-ci ilin 26 oktyabrında dövlətimizin rəhbərinin və Türkiyə Respublikasının Prezidentinin Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olmaları müharibə meydanında qazandığımız Zəfərin tikinti meydanında davam etdiyinin göstəricisi idi.

Bu möhtəşəm layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işlərinə başlanıldı. İnnovativ tikinti materiallarından istifadə edilməklə tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyriyaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə həyata keçirildi ki, doğma yurdlarına qayıdacaq sakinlər hərtərəfli şəraitlə əhatə olunsunlar.

Kəndli torpaqsız yaşaya bilməz. Əkib-becərmədən onun vaxtı keçməz. Odur ki, Ağalıda kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı da bir sıra işlərin görülməsi nəzərdə tutuldu. Kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirildi və lazımi innovativ texnikaların siyahısı hazırlandı. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunması planlaşdırıldı. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər həyata keçirildi. Bir sözlə, 30 ilə yaxın dövrdə erməni vəhşiliyi ilə üzləşən, dağıdılan, məhv edilən Ağalı, 30 il sonra "ağıllı Ağalı" olaraq sakinlərinə təqdim olunmaq üçün hazırlanmağa başlandı.

Mayın 27-də-Böyük Qayıdış başlamazdan əvvəl Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak etdilər.

## 19 iyul 2022-ci il: Böyük Qayıdışın ilk günü

Bu gün tariximizin səhifələrinə ümumilikdə Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad olunduğu günlər kimi, qızıl hərflərlə yazıldı. Çünki torpaqları işğaldan azad etmək qədər həmin torpaqların dirçəldilməsi, sakinlərinin öz yurdlarına qayıtması da böyük Zəfər, qələbədir. Həmin gün Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa - Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsinə start verildi.

30 il əvvəl qonşuluqdan kənar qonşularımızın tamahı ucbatından ev-eşiklərindən, doğma yurdlarından zorla çıxarılan, 30 il ərzində məcburi köçkün kimi yaşamaq alın yazısı olan insanların ötən illər ərzində doğma yurda qayıdışla bağlı yuxuları çin oldu.

İşğala qədər 3 kəndi birləşdirirdi bu inzibati ərazi. Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər) ki, Ağalı elə həmin gün ilk sakinlərinə qucaq açdı. Onların gəlişi ilə toy-bayram etdi.

***

Adam bəzən düşünür, kaş ki, təbiətin-hər ağacın, hər daşın, torpağın, suyun da dili olardı. Onlar da ürəklərindən keçəni, sevinclərini, nisgillərini danışa bilərdi. Görəsən belə olsaydı, 30 il əvvəlki Qarabağ bizə nə söyləyərdi, 44 gündəki Qarabağ bizə nə deyərdi?..

Bəs bugünkü azad torpaqlarımız hansı hisslərdən danışardı?.. Elə bütün bunların fonunda da Ağalı sakinlərinin qayıdışını görərkən o torpağın, o havanın, o dağın-daşın, ağacların hansı hissləri keçirdiyini düşünür adam. Bəzən bizə elə gəlir ki, onlar cansızdır. Lakin belə deyil, o şey ki, yenilənir, deməli canlıdır. Ağaclar da, təbiət də canlıdır. Onlar söz yox ki, ağalılıların gəlişini duyurdu, lakin alın yazıları olan sükut sadəcə baxmağa icazə verir onlara... Sevinirdi, bütün dağ-daş, təbiət sevinirdi. Çünki ağalılılar özləri ilə uzun illərin bu lal sükutuna bir səs-küy, gülüş, toy-bayram aparmışdılar...

***

41 ailə Böyük Qayıdışın ilk sakinləri oldu. Onlar doğma yurdlarına qayıtdılar. Böyük qürur, sevinc, eyni zamanda kövrək hisslərlə...

## Ağalıya növbəti Qayıdış

25 iyul 2022-ci ildə isə işğaldan azad










edilmiş Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə 58 nəfərdən ibarət daha 11 ailə köçürüldü. Bununla da Ağalıya qayıdan sakinlərin sayı 201-ə, ailələrin sayı isə 41-ə çatdı.

Həmin gün isə daha unudulmaz bir səhifə açdı tariximizdə. Bu Qayıdış zamanı ağbirçək Bənövşə xanımın sevincdən titrəyən səsi ürəyimizin sarı siminə toxundu. Onun yaş dolu gözləri bizi 30 il əvvələ apardı. Onların öz dədə-baba torpaqlarından zorla çıxarılması, qurulu evlərini, bar üstündə olan bağ-bağatlarını, mal-qara, qoyun-quzu, toyuq-cücə dolu həyətlərini, bir qatma belə götürmədən çıxdıqları o kəndləri xatırlatdı. Hara üz tutduqlarını, kimin qapısına getdiklərini bilməyən, bir saat sonra daha nələrin olacağından bixəbər insanların faciəsini gətirirdi gözlər önünə.

Bizim də gözlərimiz doldu Bənövşə xanımın sözləriylə. Nə yaxşı ki, Allah Bənövşə xanıma ömür vermişdi. Yenidən torpağına qayıtmaq alın yazısı olmuşdu. Bu qadının titrəyən səsində, sevincin kədəri sildiyi gözlərində həm də vüsalın hicran üzərində qələbəsi hiss olunurdu. Bu gözlərdə, bu əzəmətli duruşda həm də bir qürur hiss olunurdu. Qonşuluqdakı ermeniyə "öl, bax, bizi torpağımıza belə qaytardılar" ifadəsi ilə qüruru hiss olunurdu.

Bənövşə xala deyirdi: "Köçkünlükdə çox çətinliklər çəkmişik. Amma ən böyük çətinliyimiz yurd həsrəti olub. Doğma kəndimizi heç vaxt yadımdan çıxarmamışam. Allaha şükürlər olsun ki, bu günü görmək mənə qismət oldu. İndi kəndimizə övladlarımla, nəvələrimlə qayıdıram. Allah Prezidentimizi, Ordumuzu qorusun. Allah şəhidlərimizə rəhmət eləsin".

13 yaşlı Vüsalın ata-baba yurduna qayıtması isə daha təsirli idi. Ağalı haqqında böyüklərindən eşitmişdi Vüsal. Sanki nağıl dinləyirmiş kimi. Bu səbəbdən də Ağalını görmək, orada-baba yurdunda olmaq hələ dünyanın gərdişindən xəbərsiz olan bu kiçik oğlanın ən böyük arzusu idi. Vüsal deyirdi: "Bu gün bu arzum gerçəkləşib. Doğum günümdə ata yurduma gəlmək mənim üçün ən böyük sevinc oldu. Sevinirəm ki, burada yaşayacaq, burada da məktəbə gedəcəyəm".

Ağalı sakinləri gəldikcə, yerləşdikcə özünə qayıdırdı. Torpaq sevinir, təbiət bayram edirdi. Çünki onların "qulağına" tanış səslər gəlirdi. 30 il bu torpaq doğmasının ayaq izlərinə həsrət idi. Bu səbəbdən də bağrındakı ayaq izlərini duyurdu, doğmalığı hiss etdikcə sevinirdi.

Kənd sakinləri, ağsaqqalı-ağbirçəyi ilə kənddir. Kənd zəhmətkeş insanların torpağın bağrını yarıb ona tər verməsi ilə, torpağın isə əvəzində ona zər bəxş etməsi ilə kənddir. Belə isə kəndi kənd edən sakinlər də Ağalıya yerləşdirilir ki, bu kənd əvvəlki kəndliyinə qayıtsın, üzü gülsün, 30 ilin kədər donunu əynindən çıxarıb toy-bayram libasını geyinsin.

***

Ötən il fevral ayının 28-də Ağalı kəndinə Böyük Qayıdışın növbəti mərhələsi ilə növbəti 20 ailə, 94 nəfər köçürüldü. Onlardan 50 nəfərdən ibarət 10 ailə həmin gün yola düşdü, 44 nəfərdən ibarət 10 ailə isə mart ayının 3-də doğma kəndlərinə köçürüldü.

10 sentyabr 2022-ci il tarixdə isə Ağalı kəndinə 62 nəfərdən ibarət daha 13 ailə köçürüldü ki, bununla da kəndə sakinlərin köçürülməsinin ikinci mərhələsi başa çatdı.

Bu il avqustun 4-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi növbəti mərhələdə Zəngilan rayonunun Ağalı kəndinə köçürüləcək ailələr arasında püşkatma keçirdi.

Püşkatmada 22 ailə (106 nəfər) iştirak etdi. Ailə tərkibinə uyğun olaraq, onlardan 9-u üçotaqlı, 9-u dördotaqlı, 4-ü beşotaqlı fərdi yaşayış evi ilə təmin olunub ki, həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar.

Püşkatmanın iştirakçıları doğma yurda qayıdışdan çox böyük sevinc hissi keçirdiklərini qeyd edib, işğaldan azad olunmuş ərazilərdə yaradılan şəraitə və məcburi köçkünlərə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

Püşkatmada iştirak etmiş ailələr qrafikə uyğun olaraq avqustun 12-də Ağalı kəndinə yola salınıb. Bununla da indiyədək Ağalı kənddə daimi məskunlaşdırılan ailələrin sayı 108-ə (526 nəfərə) çatıb. Kəndə köçürülmə davam etdiriləcək

## Ağalılılar doğma kəndlərində ağa kimi yaşayırlar

Texnika və texnologiyanın inkişafı dövründə yaşayırıq. Bu müasirliyin yaxşı tərəflərinin kəndlərimizdə də tətbiqi təbii ki, kənd sakinlərinin həyat şəraitinin yaxşılaşmasına, onların da bu yeniliklərdən faydalanmasına şərait yaradır. "Ağıllı kənd" layihəsində bütün bunlar öz əksini tapdığından bu gün ağalılılar Ağalıda həm doğma kəndlərinə, həm də müasirliyə qovuşublar.

Burada vətəndaşların məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən təmin olunur.

Kənddə reallaşdırılan layihənin icrası - yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri üzrə həyata keçirilib. Ağalıda inşa olunan 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə edilir.

Qəsəbədə, eyni zamanda, "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, həmçinin Kiçik və Orta Biznesin İnkişafı mərkəzləri təsis olunub. Beləliklə, sakinlərin dövlət xidmətlərinə rahat çıxışı gerçəkləşib, onların "ASAN" və ya "DOST" xidmətlərinə müraciət üçün rayon mərkəzinə getmələrinə ehtiyac qalmayıb. Həmçinin kənddə Ailə sağlamlıq mərkəzi, uşaq bağçası, həmçinin kənd tam orta məktəbi də sakinlərin istifadəsində olacaq.

## Və sülhün tərənnümü göyərçinlə...

Ağalı kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalan əzəli torpaqlarda sülhün əbədi gerçəkləşdirilməsini təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi ucaldılıb. Bunun isə rəmzi mənası var: Böyük Qayıdışın ilk məkanı olan Ağalıda bütün Qarabağın və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan rayonların əmin-amanlığı, inkişafı, bu günü və sabahı birləşir. Çünki torpağın düşməndən geri alınması, vətəndaşların öz əzəli dədə-baba torpaqlarına geri dönməsi, Azərbaycanın ərazi bütövlüyü məhz bu abidədə öz əksini tapır.

Bu abidə həm də İkinci Vətən müharibəsində sinəsini düşmənə sipər edərək şəhid olan igid oğullarımızın xatirə abidəsidir. Bu abidə özündə müharibəni, döyüşləri, mübarizələri, Zəfəri və Qayıdışı tərənnüm edən böyük bir ziyarətgahdır.

***

Zaman ötəcək. Vaxt gələcək ki, bu abidə haqqında nəvələrimizə danışacağıq. Torpaqlarımıza sülh bəxş edən Ali Baş Komandandan və milli ordumuzun zabit və əsgərlərinin şücaətindən söhbət açacağıq. Bu abidənin rəmzi mənasını sadaladıqca elə Böyük Qayıdışı da xüsusi vurğulayacaq və qürurla deyəcəyik ki, dövlətimiz öz vətəndaşına ata-baba yurdunu yenidən bəxş edə bildi. 30 il mübarizələrdən sonra buna nail oldu.

Bu abidə zaman gələcək ki, daşıdığı rəmzi məna ilə bir ziyarətgah olacaq. Qarabağa və Şərqi Zəngəzura yolu düşənlər səfərini bu abidədən başlayacaqlar. Bu, sözsüz, belə olacaq. Bu abidə ilə Ağalı kəndindən Qarabağa və Şərqi Zəngəzura bir yol başlayır. Bu yol Zəfər, bu yol Qayıdış yoludur. Bu yolda ömrümüzdə heç olmasa, bir dəfə olmaq necə də xoşbəxtlikdir...

***Mətanət Məmmədova***



# “Ermənistanın BMT TŞ-yə müraciəti diqqəti yayındırmaq cəhdidir”

## Ermənistanın nazı ilə oynayanlar bilməlidirlər ki, Azərbaycanın sülh təklifi uzun müddət masa üzərində qalmayacaq

Son illərdə dünyada sülhün və təhlükəsizliyin təminatında əhəmiyyətli rol oynamalı olan BMT-nin özünün qəbul etdiyi qətnamələrin icrasında zaman və məkan amilini öndə saxlaması bu mötəbər quruma qarşı müxtəlif fikirlərin, ən əsası etimadsızlıq mühitinin yaranmasına səbəb olur. Necə olur, BMT-nin qəbul etdiyi qətnamələr bəzən 1-2 saat ərzində icra edilir, Azərbaycana gəldikdə isə 28 il gözləməli olduq? Tarixi Zəfərimizdən üç ilə yaxın vaxt keçməsinə baxmayaraq Azərbaycan daim ən yüksək tribunalardan, həmçinin beynəlxalq əhəmiyyətli tədbirlərdə bu çağırışı edərək dünyanın ikili standartlara əsaslanan siyasətinin yaratdığı problemlərə diqqəti yönəldir. Rəsmi Bakı daim bu qətnamələrin icrası üçün vahid mexanizmin müəyyənləşdirilməsini tələb etdiyi halda, ”nədənsə” dünya gücləri susmaqda davam edir. İkinci Qarabağ müharibəsində şanlı Zəfərimizdən sonra günün əsas müzakirə mövzularından biri BMT sisteminin təkmilləşdirilməsi, onun tərkibinin genişləndirilməsi məsələsidir. Nəzərdən qaçırmaq olmaz ki, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən üçü keçmiş ATƏT-in Minsk qrupunun həmsədri olmuş ölkələrdir. BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının işğalı ilə bağlı qəbul etdiyi 4 qətnamə layihəsinin hazırlanmasında və təsdiqi prosesində iştirak edən bu dövlətlərin 30 illik işğal dövründə bu qətnamələrin icrasına mane olmaları diqqətdən kənarda qalmadı. Hansı ki, həmin qətnamələrdə Qarabağın Azərbaycan ərazisi olduğu, erməni silahlı birləşmələrinin bu ərazilərdən qeydşərtsiz çıxarılmasının vacibliyi öz əksini tapmışdı. 44 günlük Vətən müharibəsində Azərbaycan Qarabağın ölkəmizin ayrılmaz hissəsi olduğunu tarixi Zəfəri ilə sübut etdi. Hazırda bu torpaqlarda genişmiqyaslı bərpa-quruculuq işləri həyat keçirilsə də, Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarəti altında olan hissəsindən qanunsuz erməni silahlı birləşmələrinin hələ də çıxarılmaması narazılıq doğuran mühüm məqamlar sırasındadır. Bu tələb, eyni zamanda, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda da öz əksini tapıb.

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, bu günlərdə BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçilərinin və müstəqil ekspertinin guya Azərbaycan tərəfindən Laçın yolunun blokadada saxlandığı və ”Dağlıq Qarabağ” bölgəsində ”gərgin humanitar vəziyyət” yarandığı barədə bəyanatı ölkəmiz tərəfindən sərt reaksiya ilə qarşılandı. Azərbaycan Xarici İşlər Nazirliyi bu bəyanatı dərhal cavablandıraraq bildirdi ki, 30 ildə Azərbaycan ərazilərinin işğalına, 1 milyona yaxın qaçqın və məcburi köçkünün insan hüquqlarının pozulmasına, son üç il ərzində Azərbaycan ərazilərində erməni silahlı qüvvələrinin mövcudluğuna, məcburi köçkünlərin öz evlərinə geri qayıtmasına maneçilik törədilməsinə göz yuman BMT xüsusi məruzəçilərinin və ekspertlərinin Ermənistanın manipulyasiyalarına aldanıb qərəzli bəyanatlar verməmləri narahatlıq doğurur. Bununla yanaşı, həmin şəxslərin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmət etməyərək bəyanatda ”Dağlıq Qarabağ” kimi ifadələr işlətmələri, ölkəmizin daxili işlərinə qarışmaq cəhdləri və ikili yanaşmalar tətbiq etmələri qəbuledilməzdir. Bu mühüm məqamı xüsusi qeyd etməliyik ki, bölgədə davamlı sülhün və təhlükəsizliyin təmin edilməsi, Ermənistanla münasibətlərində yeni səhifənin açılması məqsədilə ölkəmizin təklif etdiyi sülh müqaviləsinin imzalanması istiqamətində aparılan danışıqlarda, sülh müqaviləsinin imzalanması ilə bağlı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin, Rusiya və ABŞ-ın təşəbbüsləri ilə keçirilən görüşlərdə belə ”Dağlıq Qarabağ”, ”ATƏT-in Minsk qrupu” ifadələri işlədilmir. Artıq Azərbaycanda ”Dağlıq Qarabağ” adlı inzibati ərazi vahidi yoxdur. Buna görə də beynəlxalq təşkilatlar, o cümlədən BMT-nin ekspert və xüsusi məruzəçiləri də Azərbaycanın suverenliyinə və Konstitusiyasına hörmətlə yanaşmalıdırlar. Dövlət başçısı İlham Əliyev tarixi Zəfərimizdən sonra ilk olaraq bu çağırışı etdi ki, Qarabağ münaqişəsi artıq tarixə qovuşub, ”Dağlıq Qarabağ” adlı inzibati ərazi vahidi yoxdur. Bu bəyanatı dövlət başçısı İlham Əliyev 2021-ci ildə BMT Baş Assambleyasının 76-cı sessiyasında ümumi müzakirələr çərçivəsində çıxışında da səsləndirmişdir.

YAP Xətai rayon təşkilatının sədri onu da əlavə edib ki, Ermənistan öhdəliklərinə zidd olaraq, silahlı qüvvələrini torpaqlarımızdan tam olaraq çıxarmamaqla yanaşı, Laçın yolu vasitəsilə onları silah-sursatla təchiz edib, Azərbaycanın təbii sərvətlərinin talan edilməsi ilə məşğul olub. Bütün bunlar BMT və digər beynəlxalq təşkilatlar tərəfindən susqunluqla qarşılanıb. Azərbaycan məhz öz sərhədlərinə nəzarət və Ermənistanın qeyri-qanuni fəaliyyətinin qarşısını almaq məqsədilə özünün suveren ərazilərində Laçın sərhəd-buraxılış məntəqəsi təsis etdi. Ermənistanın bu səyləri ”blokada” kimi təqdim etməyə çalışmasına, nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması barədə qərar qəbul etmək üçün Beynəlxalq Ədalət Məhkəməsinə müraciət etməsinə baxmayaraq, məhkəmə 6 iyul tarixli qərarında bu tələbi yekdilliklə rədd etdi. Azərbaycan tərəfindən erməni sakinlərin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin və Rusiya sülhməramlı kontingentinin sərhəd-buraxılış məntəqəsindən keçidinin təmin olunmasına baxmayaraq, Ermənistan tərəfi ərazilərimizdə qeyri-qanuni fəaliyyətini davam etdirmək məqsədilə bölgədə saxta ”gərgin humanitar vəziyyət” barədə iddialarını davam etdirir. Bu iddialar siyasi şantaj və manipulyasiyadır. Azərbaycan hazırda bölgədə davamlı sülhün və təhlükəsizliyin təmin edilməsi üçün səy göstərir və bu məqsədlə sülh sazişi, delimitasiya, kommunikasiyaların açılması istiqamətində təşəbbüslər irəli sürür. Təbii ki, bu səyləri dəstəkləmək əvəzinə qərəzli bəyanatlar verilməsi prosesə müsbət təsir etməyəcək.

Vüqar Rəhimzadə bildirib ki, Ermənistanın bölgədə ”humanitar vəziyyətin pisləşməsi” və ”davam edən blokada” ilə bağlı əsassız iddialarla əlaqədar BMT Təhlükəsizlik Şurasına müraciət etməsi işğalçı dövlətin növbəti beynəlxalq hüquqa zidd addımı, diqqəti yayındırmaq cəhdidir. Azərbaycan tərəfi bütün bunlara sərt münasibətini bildirdi. Azərbaycan Xarici İşlər Nazirliyinin bununla bağlı yayılan məlumatda bildirilir ki, bu gün Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar edilməsi istiqamətində göstərilən səylər Ermənistanın məqsədyönlü gərginlik və revanşizm siyasətinin qurbanına çevrilib və ciddi çağırışlarla üzləşir. Ermənistanın BMT Təhlükəsizlik Şurasına müraciəti bu kampaniyanın bir hissəsidir və bu baxımdan, iştirak edən tərəflərin, o cümlədən Təhlükəsizlik Şurasının üzvlərinin səylərinə ciddi zərbə vurur. Bu məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycanın suveren ərazilərində qanunsuz yerləşdirilmiş radioelektron mübarizə vasitələrinin istifadəsi xüsusi narahatlıq doğurur. Ermənistanın bu cür hərəkətləri onu göstərir ki, işğalçı dövlət Azərbaycana qarşı ərazi iddialarına son qoymayıb.

YAP Xətai rayon təşkilatının sədri bu ümumiləşdirməni aparıb ki, dünya güclərinin Ermənistana qarşı ciddi addımlar atmalarının vaxtı çoxdan çatsa da, onların seyrçi mövqelərinin hansı problemlərə gətirib çıxardığı göz önündədir. İşğalçı dövlət son addımları ilə açıq-aşkar sülh müqaviləsinin imzalanması prosesinin uzanmasında maraqlı olduğunu bir daha təsdiqləyir. Artıq beynəlxalq təşkilatların, aparıcı dövlətlərin Ermənistana ciddi şəkildə ”dur!” deməsi vaxtıdır. Ermənistanın nazı ilə oynayanlar bilməlidirlər ki, Azərbaycanın sülh təklifi uzun müddət masa üzərində qalmayacaq.

# ”Ermənistan Azərbaycanın nə qədər güclü olduğunu unudur”



“Ermənistanın Qarabağdakı ermənilərin guya aclıq çəkdikləri və onlara ərzaq yardımı etmək şousu bir müddətdir ki, davam edir. Artıq bunun teatr səhnəsi olduğunu dünyada hər kəs bilir. Ermənistanda olan bəzi siyasi qüvvələrin, o cümlədən onların xaricdə olan havadarlarının bu məsələdə özəl maraqları var və fərqli bəyanatlar veriblər. Amma bütün dünyaya bəllidir ki, bu şoudan başqa bir şey deyil. Paşinyan Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanısa belə, bu cür şoular göstərərək, vəziyyəti dəyişmək istəyirlər”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Musa Quliyev deyib.

Onun sözlərinə görə, Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa, bu sülh müqaviləsini də bu şəkildə imzalayacağı deməkdir: ”Onda göstərilən şoulara nə gərək var ? Təbii ki, buradan da Ermənistanın özünün müstəqil qərar qəbul etmədiyi açıq-aşkar görünür.

BMT-ə müraciət edilib-edilməməsi isə bizi o qədər də maraqlandırmır və narahat etmir. BMT-nin əslində yenidən təşkil olunması və səlahiyyətli orqana çevrilməsinə ehtiyac var. 30 ildən çox müddətdə Qarabağ əraziləri işğalda idi və bu ərəfədə BMT 4 qətnamə qəbul etdi. Amma bu qətnamələrin heç biri yerinə yetirilmədi. Belə olan halda BMT Azərbaycana nəsə deyə bilməz.

Rusiya sülhməramlıları öz vəzifələrini müəyyən qədər yerinə yetirməyə başlamalıdırlar. Xankəndi-Ağdam yolunun işə düşməsi üçün fəaliyyət göstərməlidirlər. Digər bir tərəfdən Qarabağdakı qeyri-qanuni erməni silahlı qüvvələri oradan çıxmalıdır. Bunu sülhməramlıların təmin etmədiyi təqdirdə, Azərbaycan silahlı qüvvələri təmin etməlidir. Bununla bu proses yekunlaşmalıdır. Çünki oradakı silahlı qüvvələri mülki erməni əhalisini təhrik edir və təhdid altında saxlayır. Lakin Ermənistan Azərbaycanın nə qədər güclü bir dövlət olduğunu unudur”.

*Səbinə Hüseynli*

# ”Nar” dan yeni xidmət: NaviMax GPS izləmə imkanı




Artıq ”Nar” abunəçiləri NaviMax tətbiqi ilə izlənmə funksiyası mümkün olan istənilən cihazın GPS izləmə vasitəsi ilə yerinə, hərəkətinə, qət etdiyi məsafəyə və digər göstəricilərinə minimum ödənişlə nəzarət edə bilərlər. Aylıq 1 AZN abunəlik haqqı ilə yaxınlarınızın olduğu məkanı həm real vaxtda, həm də oflayn rejimdə izləyib onların təhlükəsizliyini təmin edə bilərsiniz.

Xidmətə qoşulmaq üçün ilk olaraq, ”App Store” və ya ”Play Store”-dan NaviMax-ı yükləyib, ölkələr siyahısından Azərbaycanı seçərək qeydiyyatdan keçirsiniz. Daha sonra telefonunuza gələn birdəfəlik şifrəni daxil edərək GPS icazəsini aktivləşdirməklə qeydiyyatı tamamlamış olursunuz. Qeyd edək ki, abunəçilər xidməti 3 gün pulsuz istifadə edib test edə bilərlər. NaviMax xidməti haqqında ətraflı məlumatı nar.az/navimax səhifəsindən əldə edə bilərsiniz.

”Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. ”Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Vladislav Şurıqin:
## “İrəvanın Bakıya təsir alətləri yoxdur”

***Rusiyalı hərbi ekspert və publisist Vladislav Şurıqin "Caliber" analitik mərkəzinə müsahibəsində regionumuzda və dünyada gedən proseslər haqda maraqlı fikirlər bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Vladislav Vladislavoviç, Rusiyanın Ukrayna ilə müharibədə İran istehsalı olan dronlardan istifadə edib-etmədiyini sizdən eşitmək istərdik. Bildiyiniz kimi, Moskva və Tehran bunu rəsmi səviyyədə bəyan etmir.***

- Təbii ki, İranın "Geran-1" və "Geran-2" pilotsuz təyyarələrindən Rusiya Ukraynaya qarşı müharibədə istifadə edib. Və şübhəsiz ki, ilkin mərhələdə onlar bizə çox vacib dəstək verdilər. Ancaq yalnız ilkin mərhələdə, sonra bu istehsal bizim ərazimizdə yerləşdirildi və indi bütün bu silah növləri Rusiyada istehsal olunur. Üstəlik, sırf modernləşdirilmiş rus tipli "Geranium" artıq istehsal olunur.

Rusiya hərbi arsenalında İran pilotsuz təyyarələrinin həcmi barədə dəqiq məlumat yoxdur. Amma məlumdur ki, İran PUA-larının ilk partiyası ən azı 200 ədəd təşkil edib. Rusiya Federasiyası öz istehsalını qurduqdan sonra bu PUA-lardan ayda bir neçə yüz ədəd istehsal edir.

***- Sizcə, İran və Rusiya Federasiyasının birgə pilotsuz təyyarələr istehsalı zavodunun tikintisi Tehranın Moskvaya hərbi texnologiyaların ötürülməsi ilə hansısa şəkildə bağlıdır?***

- Məndə belə bir məlumat yoxdur. Amma məntiqi olaraq dronların birgə istehsalı artıq bu texnologiyalara hansısa girişi və ya komponentlərin genişmiqyaslı tədarükü nəzərdə tutur. Bu üsullardan hansının seçildiyini söyləmək çətindir. Güman edə bilərəm ki, Tehrandan ilk partiyada gətirilən Şahed PUA-nın özü olduqca sadədir və buna görə də böyük miqdarda ehtiyat hissələrini minlərlə kilometr uzağa çəkmək zərurəti mənasız olardı. Mövcud materiallar əsasında hər şeyi yerində yerləşdirmək daha asan olar.



***- Bəs Rusiya Federasiyası bunun müqabilində İrana nə verir? Ekspert rəyi var ki, Moskva pilotsuz təyyarələr müqabilində qoşunlarının bir hissəsini Suriyadan çıxaracağını və hərbi bazalarını iranlılara təhvil verəcəyini vəd edib. Bu, nə dərəcədə ehtimaldır?***

- Məncə, inandırıcı deyil. Suriyanın hərbi mövcudluq baxımından bölünməsi çoxdan bitib. Rusiya orada hər hansı yeni bazalar zəbt etməyə çalışmır, əksinə, ənənəvi olaraq əsas nöqtələrə- aerodroma və Tartusdakı hərbi dəniz bazasına nəzarət edir. Müvafiq olaraq, Rusiya bölmələri ölkənin şimalında və şimal-şərqində cihadçılara qarşı mübarizədə suriyalılara hərbi yardım göstərməkdə davam edir. İran həm Dəməşqdə, həm də Suriyanın siyasi seqmentində kifayət qədər güclüdür. Bu baxımdan Rusiya Federasiyası ilə İran arasında heç bir ziddiyyət yoxdur. Daha doğrusu, mənim fikrimcə, söhbət Rusiya Federasiyasının İrana əsas hərbi texnologiyaları ötürməyə hazır olmasından gedir, əslində bunu edir. Tehrana ilk növbədə Hərbi Hava Qüvvələrini təkmilləşdirməli, bəzi raket proqramlarını, xüsusən də uzaq mənzilli idarə olunan raket silahlarını korrektə etməlidir. Bütün bunlardan əlavə, İranın Rusiya hərbi arsenalından əldə etmək istədiyi çox şey var. Hesab edirəm ki, bu sahədə Rusiya Federasiyası ilə İran arasında konsensus əldə olunub.

***- Qiymətləndirmənizə görə, İran və Səudiyyə Ərəbistanı hərbi ittifaq yarada biləcəkmi və bunun Yaxın Şərq üçün hansı nəticələri ola bilər?***

- Hesab edirəm ki, yaxın gələcəkdə İran və Səudiyyə Ərəbistanının hərbi ittifaq yarada bilməsi ehtimalı azdır- onların arasında sistemli, dərin köklü ziddiyyətlər həddən artıq çoxdur. Hər şeydən əvvəl dini ehkamlar. Amma orta və uzunmüddətli perspektivdə onların qarşıdurmalardan daha çox qarşılıqlı maraqlarının olması da həqiqətdir. Səudiyyə Ərəbistanı rəhbərliyi praqmatik hərəkət edərsə, o zaman müəyyən ittifaqın yaradılması tamamilə mümkündür. Bununla belə, bu ölkələrin karbohidrogen (əsasən neft) maraqlarını nəzərə alaraq və milli maraqların qorunması, təsir dairələrinin bölünməsi və öz maraqlarının təmin edilməsi baxımından bunun hərbi ittifaq olub-olmayacağını söyləmək çətindir. Bazarlar Səudiyyə Ərəbistanı və İranı yaxınlaşmağa sövq edə bilər.

***- Hazırda ABŞ-ın Hörmüz boğazından tranzit keçən neft tankerlərinin göyərtəsində dəniz piyadaları yerləşdirmək planlarına cavab olaraq İran öz donanmasını 1000 km-ə qədər mənzili olan raketlərlə silahlandırır. Bu, İranın nüvə proqramı ilə bağlı razılaşmanın olmaması fonunda yeni eskalasiyaya səbəb ola bilərmi?***

- Fikrimcə, indiki mərhələdə ABŞ və İran arasında Hörmüz boğazında ciddi hərbi qarşıdurmanın perspektivi yoxdur. Birləşmiş Ştatlar Ukrayna münaqişəsinə həddən artıq batırılıb, qarşıda Tayvanla bağlı böyük problem var, Çinlə ziddiyyətlərin artması, buna görə də İranla hərbi münaqişə ABŞ üçün, ən azı indiki administrasiyada çətin ki, mümkün olsun. Gələn il Amerika üçün seçki ili olmasına nəzərə alsaq bu mümkün deyil. Çox güman ki, tərəflər qarşılıqlı təhdidlər və ya hansısa insidentlərlə məhdudlaşacaqlar ki, bu da əslində, hansısa ciddi toqquşmaya çevrilməməlidir.

Eyni zamanda, Ukraynada hərbi münaqişə dərinləşdikcə avropalıların ABŞ-dan asılılığı getdikcə daha aydın görünür. Əslində, son bir il yarım ərzində amerikalılar 5-ci kolonun köməyi ilə indi Avropa İttifaqında əsas rol oynayan bürokratiyanı, Avropa diplomatiyasını sındırıb diz üstə çökdürüblər. Təsadüfi deyil ki, bu gün məhz Aİ-də əsas yerləri Amerika məktəblərindən və universitetlərindən keçmiş, öz ölkələrinin pasportlarını saxlamasına baxmayaraq, Amerikanın 5-ci kolonu olan insanlar tutur. Başa düşmək lazımdır ki, onların hamısı amerikalıların dediklərini tam yerinə yetirəcək. Ona görə də ABŞ İranı öz yerinə oturtmaq üçün nüvə sazişini tamamilə pozmağın lazım olacağına inansa, onlar bunu edəcəklər.

***- Və nəhayət, Cənubi Qafqaz mövzusunda bir sual. Ermənistan BMT Təhlükəsizlik Şurasına guya "Qarabağın blokadası səbəbindən humanitar vəziyyətin pisləşməsi" ilə bağlı növbədənkənar iclas çağırmaq tələbi ilə müraciət edib. Ermənistanın bu təxribatçı addımını necə qiymətləndirərdiniz?***

- Bu bəyanatda dəqiq deyilir ki, Ermənistanın artıq BMT tribunasında beynəlxalq ictimaiyyətə müraciət etməkdən başqa Azərbaycana təsir alətləri yoxdur. Açığı, bu, uduzulmuş müharibənin qisasıdır və İrəvanın yeganə ümidi beynəlxalq ictimaiyyətin köməyi ilə Bakıya təsir etmək cəhdidir. Onun başqa planı yoxdur. Doğrudan da, Ermənistan heç bir müqaviləni poza və heç bir sazişdən çıxa bilməz, çünki onun müvafiq olaraq imzalanmış sənədlər üzrə Rusiyadan başqa heç bir təminatçısı yoxdur. Ermənistan bütün imzalanmış sənədləri aradan qaldırarsa, bununla Qarabağda qalan məsələnin hərbi yolla həlli üçün Azərbaycanın əl-qolunu açacaq. Ona görə də Ermənistanın bir növ diplomatik demarşa müraciəti beynəlxalq ictimaiyyətin diqqətini erməni probleminə yönəltmək cəhdindən başqa bir şey deyil.

***Tərcümə - Elçin***

# Polşa Rusiya-Ukrayna müharibəsinə qoşulur?

**Şimali Atlantika Alyansının fəaliyyətinin bir çox mühüm istiqamətləri üzrə siyasi direktivlər hazırlanır ki, bu da Rusiya ilə konsolidasiya edilmiş Qərb arasında qarşıdurmanın yeni mərhələsini müəyyənləşdirir. Onların arasında:**

- Finlandiya hesabına NATO müqaviləsinin daha da genişləndirilməsi var idi. İsveç hazırda gözləmə rejimindədir;

- Ukrayna uzunmüddətli perspektivdə Rusiyaya qarşı çoxillik proxy müharibəsi perspektivi ilə hərbi gücünü artırmağa davam etdi;

- alyansla Rusiya arasında birbaşa hərbi qarşıdurma perspektivi kontekstində NATO ilə Rusiya Federasiyası arasında birbaşa hərbi qarşıdurma variantlarını özündə əks etdirən sənəd hazırlanıb. Sənədə regional müdafiə planlarının yeni nəsli daxildir. NATO ondan irəli gəlir ki, bu planlar ailəsi hərbi-siyasi blokun hər hansı təhlükənin qarşısını almaq və ondan qorunmaq qabiliyyətini və hazırlığını əhəmiyyətli dərəcədə artıracaq (o cümlədən, qısa müddətdə və ya əvvəlcədən xəbərdarlıq etmədən) və bütün müttəfiqlərin vaxtında gücləndirilməsini təmin edəcək. .

Polşanın Rusiyaya qarşı superhərbiləşdirilmiş qoçuya çevrilməsi üçün onun prioritet gücləndirilməsinə (quru qoşunları, F-35-lərin təyyarələrin tədarükü, yeni RƏM qurğularının yerləşdirilməsi və s.) mühüm diqqət yetirilir.

Alyans NATO-nun rəqəmsal transformasiyası əsasında çoxsahəli əməliyyatlar aparmaq bacarığı üzərində işi davam etdirmək niyyətindədir. Hansı ki, quruda, havada, dənizdə, kiberməkanda və kosmosda əməliyyatlarda hərbi və texnoloji üstünlüyü artırmalıdır.

Sırf hərbi hazırlıqlarla yanaşı, blokun siyasətinin "hibrid" hissəsinə də lazımi diqqət yetirildi:

- Rusiya, Çin və İran qüvvələrinin ABŞ, NATO, onların müttəfiqləri və tərəfdaşlarına qarşı həyata keçirdiyi iddia edilən hibrid əməliyyatların təhlili aparılıb və alyansın özünün müdafiə və hücum hibrid strategiyalarını inkişaf etdirməsi üçün addımlar müəyyən edilib;




- Rusiya, Çin və alyansa dost olmayan bəzi digər ölkələrlə qarşıdurmanın yeni hibrid formaları və üsulları təsdiq edildi;

- alyansın Qərbin qlobal üstünlüyünün hərbi alətinə çevrilməsi kontekstində NATO-nun hibridləşdirilməsinin davam etdirilməsi.

Amerika Birləşmiş Ştatlarında prezident seçkiləri ərəfəsində amerikalılar bloka daxil olan dövlətlərin Yekun Sənədi razılaşdırmaqda müasir dövrdə nadir olan birliyinə nail ola bildilər və müttəfiqlərə inkişaf perspektivləri ilə bağlı öz baxışlarını təlqin edə bildilər. hərbi-siyasi birliyin.

Birincisi, Vaşinqton Türkiyə-İsveç böhranını həll edə bildi və rəsmi olaraq İsveçin alyansına qoşulmaq üçün Ankaranın razılığını ala bildi. İsveçə qəbul prosesinin qarşısındakı əngəl Budapeştin mövqeyi olaraq qalır.

İkincisi, xüsusilə inadkar tərəddüdlü müttəfiqlərin mahir manevrləri, vədləri və əl-qolunu əyməsi nəticəsində Amerika nümayəndə heyəti Ukraynanın (və bəzi digər ərizəçilərin) NATO-ya "qaçaqmalçılıq yolu ilə gətirilməsi" ilə bağlı razılığa gəlməkdə mərhələlərin sayının azaldılmasına nail oldu. qeyri-müəyyən gələcək.

Xatırladaq ki, Ukraynanı qəbul etmək üçün əvvəllər iki prosessual məsələ üzrə bütün müttəfiqlərin razılığının alınması zəruri hesab olunurdu. Birincisi, NATO Üzvlük Fəaliyyət Planının təqdim edilməsi üçün konsensusla bağlı idi. İkincisi, NATO-ya üzv olmaq üçün rəsmi dəvətlə Kiyevə məktub göndərməkdir. İndi sizə lazım olan yalnız dəvətnamədir, onu istənilən vaxt Kiyevə göndərə bilərsiniz. Ancaq Ukraynaya açıq şəkildə deyilir ki, belə bir məqam yalnız hərbi münaqişə bitdikdən sonra gələcək.

Ümumiyyətlə, Vaşinqton öz müttəfiqlərinin hər birini gələcəkdə Ukraynanın və bəzi digər namizəd dövlətlərin NATO üzvlüyünə hazır olduğunu tanımağa "inandırmaq" üçün müxtəlif sınaqdan keçmiş sxemlərin imkanları vasitəsilə özü üçün manevr azadlığını təmin etdi.

# Tofiq Yaqublu baş trol olmağa hazırlaşır




Dağıdıcı müxalifət partiyalarının qərəzli və yanlış mövqe sərgilədikləri sosial şəbəkələrdə ağıllarına deyil, ağızlarına gələn statusları paylaşdıqları hər kəsə bəllidir. Onların statuslarını oxuyanda insanda elə təsəvvür yaranır ki, bu şəxslər siyasətdən uzaq olan fəaliyyətlərini, əsasən, "Fb fəalı" olmaq üzərində quran məxluqlardır. Bu baxımdan, AXCP sədri Əli Kərimli, "Milli Şura"nın sədri Cəmil Həsənli, şuranın üzvləri Tofiq Yaqublu, Gültəkin Hacıbəyli və digərləri azərbaycanlı deyil, İrəvanda oturub, Azərbaycan dövləti və xalqı haqqında Koçaryan, Sarkisyan kimi sayıqlayan revanşistlərdir. Fikir verin, AXCP-dəki trolların rəhbəri İlham Hüseynlinin yerinə göz tikən T.Yaqublu iddia edir ki, "Laçın sərhəd keçid məntəqəsi açılmalı və Qarabağdakı ermənilərə humanitar yüklər göndərilməlidir". Başqa bir sayıqlamasında isə deyir ki, "yaxşı olardı ki, Xankəndi ilə danışıqlar aparılsınr". Bu fars-molla rejiminin bozbaş mollaları düşüncəsi ilə sayıqlayan məxluqa deyən lazımdır ki, Rusiyanın icazəsi olmadan hansısa ölkə Dağıstana və ya Tatarıstana yüklər göndərə bilərmi? Gürcüstanla razılaşdırmadan Almaniyanın, İngiltərənin Abxaziyaya yük göndərmələri mümkündürmü? Xankəndi, Ağdərə, Xocavənd və digər rus sülhməramlılarının müvəqqəti nəzarət etdikləri ərazilər Azərbaycanın bütün dünyanın tanıdığı suveren torpaqlarıdır. Bu ərazilərə hər hansı yüklərin daşınması Azərbaycan dövlətinin razılığı əsasında həyata keçirilə bilər. Ermənilərin və onların havadarlarının hay-küyləri isə boş qazanı danqıldatmaqdan başqa bir şey deyil. Bunu T.Yaqublu və onun əqidə dostları Koçaryan, Sarkisyan, Artunyan, Vardanyan və digərləri anlamalıdırlar. Əgər başa düşmürlərsə, dəmir yumruqla anlatmaq olar. T.Yaqublu kimiləri isə təkrar qeyri-qanuni hərəkətlərə yol verəcəyi təqdirdə, dəmir barmaqlıqlar arasına göndərməklə yenidən islah olunmasına cəhdlər göstəriləcək.

### "Azadlıq radiosu" Tofiq Yaqublunu məyus etdi

T.Yaqublu paylaşımında həqiqəti yazan, reallıqdan çıxış edən jurnalistləri təhqir edir, onları yaltaq adlandırır: "Son günlər yaltaq Adamlar Parnikinə (YAP) tabe media quruluşları şərlənərək həbsə atılmış Qubad İbadoğluya və Milli Şuranın rəhbərliyinə daxil olan şəxslərə qarşı ciddi qarayaxma və şərləmə kampaniyası aparırlar. Onların yazdıqlarının nə qədər absurd və ədəbsiz olduğunu qeyd etməyə ehtiyac görmürəm, çünki onların hansı yuvanın quşları olduğunu yaxşı bilirsiniz. Bu ittihamların içində Cəmil Həsənliyə və Qubad İbadoğluya qarşı elə orijinal ittiham var ki, onların yanında "saxta pul kəsmək", "narkotik satmaq", "erməniyə işləmək" və s. adama xoş zarafat kimi gəlir. Adam məttəl qalır ki, o trol jurnalist "özlərini alim adlandıran Cəmil Həsənli və Qubad İbadoğlu" ifadələrini yazanda, nə əcəb kompüter tüstülənməyib". Məsələyə özəl şərhimi verməzdən əvvəl qeyd edim ki, T.Yaqublu bütün statuslarında "Azadlıq radiosu"nun əməkdaşlarını "fədakar jurnalistlər", "cəsur qələm əhli" adlandırırdı. Lakin bu yaxınlarda aydın oldu ki, radioda hərc-mərclik hökm sürür, addımbaşı jurnalistlərin haqları pozulur, hüquqları tapdalanır. Radionun əməkdaşları İslam Şıxəlinin, Rəvan Seyfullanın, Orxan Rüstəmzadənin, Arzu Əliyevanın, Ramin Dekonun və digərlərinin imzaladıqları bəyanatda idarəçilərə qarşı sərt ittihamlar irəli sürülür: "İşçilərə pis rəftar edilir, onlar təhdidə və qısnamaya məruz qoyulur. Etiraz edənlərə qarşı qisasçı mövqe sərgilənir, işdən uzaqlaşdırılır və ya elə bir vəziyyətə gətirilir ki, özləri çıxıb gedirlər: Ştatdan kənar çalışan əməkdaşların bir çoxu illərdir davam edən "maliyyə pozuntularında" oyuncağa çevrilib. Azadlıq Radiosunun Azərbaycan xidmətində qərarverici statusa malik insanlar, radionun onlara verdiyi səlahiyyətləri şəxsi maraqları naminə qisasçılıq, tabeliyindəki insanları mənəvi və psixoloji cəhətdən əzmək, maddi maraqları üçün istifadə etmək yolu tutublar".

### Q.İbadoğlunun ailəsi hüquq-mühafizə orqanlarının açıqlamasından razı qalıb

Radionun fəaliyyətindən narazı qalan jurnalistlər onu da qeyd edirlər ki, biz yazdıqlarımızda problemləri kifayət qədər açıq ortaya qoymuşuq, lakin RFE/RL bizim yazdıqlarımızın heç birinə tutarlı cavab verməyib: "Bu problemlərin həll edilməsi üçün hər hansı bir araşdırmaya başlamayıb. Biz, demokratiyanın təbliğini, azad medianı özünün missiyası elan edən RFE/RL-i haqqı tapdanan jurnalistlərin haqlarını dəstəkləməyə, şikayətlərini araşdırmağa çağırırıq. ABŞ konqresi - ABŞ xalqının vergiləri hesabına maliyyələşdirdiyi radioda pulların necə xərcləndiyini, şəffaflığı sorğulamağa çağırırıq. Biz, bir daha Azərbaycanda və dünyadankı insan haqları qurumlarından, azad sözü, medianı müdafiə edən təşkilatlardan bizim qaldırdığımız məsələlərə diqqət yetirmələrini, radionun içərisində qalıb hələ də hər an aşağılanmaq, təhqir olunmaq, işdən qovulmaq təhdidləri qarşısında olan jurnalist həmkarlarımızın müdafiəsi üçün əllərindən gələni etməyə çağırırıq".Görən "Azadlıq radiosu"na, dolayısı ilə də ABŞ-ın qaranlıq dairələrinə xidmət edən T.Yaqublu radionun fəaliyyətindən və işçilərə qarşı olan qərəzli münasibətindən xəbərdardırmı? Başa düşürmü ki, xarici KİV-lərdə haqq, ədalət deyilən anlayış yoxdur? Onlarda bir prinsip var: Kim daha çox söysə, şər və böhtanlar səsləndirsə, o, müvəqqəti zaman üçün yaxşı jurnalistdir. Maraqlar ziddiyyət təşkil edəndə isə, arzuolunmaz şəxslərdir. T.Yaqublu bunu anlamırsa, deməli, qabiliyyəti yoxdur. Anlayıb, səsini çıxarmırsa, deməli, ağasından ehtiyat edir. O ki qaldı Qubad İbadoğlu haqqında dediklərinə, bu məsələyə də Azərbaycanın hüquq-mühafizə orqanları aydınlıq gətirib. Nəticədə, Q.İbadoğlunun ailəsi açıqlamadan razı qalıb. Bundan sonra T.Yaqublunun və digərlərinin hay-küy qaldırmaları ucuz siyasi divident qazanmağa cəhddən başqa bir şey deyil.

***İ.ƏLİYEV***

TƏRS BAXIŞ

# Bizim təbiət sevgimiz, şəhər mədəniyyətimiz...





***Elə hadisələr, elə mənzərələr var ki, onlara tərs baxmayıb, necə baxasan? Tərs də baxırsan, hələ üstəlik, bu mənzərələri yaradanların arxasınca da əməlli-başlı danışırsan.***

Maraqlıdır, biz nə üçün təbiəti sevmirik? Biz nə üçün bizim üçün yaradılanlara xor baxırıq? Biz nə üçün bizim olanların qədrini bilmirik?

Bəzən o qədər təzadlı yaşayırıq ki, dərindən düşünəndə ağlayarıq. Lakin təəssüf ki, bəzi insanları Ulu Yaradan bu hisslərdən uzaq edib.

Ağaclar həyatımızda mühüm əhəmiyyətə malikdir, elə deyilmi? Bu isti yay günlərində küçəyə çıxıb istiləyən kimi bir ağac axtarıb kölgəsinə sığınmaq istəyirik. Və gedib o ağacı tapırıq. Altındakı skamyada otururuq, başlayırıq istirahətə. İstirahət də ki, nə istirahət. Nə yeyiriksə, artığını, tullantısını atırıq ağacların dibinə. Hansı ki, tullantı qabları əlimizi uzatsaq, çatacaq qədərdir.

Siqaret həyatımızı bizdən alıb, buna şübhə yoxdur. Qiyməti bahalaşır da, zərərləri haqqında danışılır da, bizə öhdə olmur ki olmur. Otururuq ağacların kölgəsində, siqaretdən çəkib özümüzü də, təbiəti də zəhərləyirik, sonra da kötüyünü atırıq ağacların altına ki, su veriləndə çəksin canına, məhv olsun, özümüz kimi...

Mağazadan su alıb içirik, dondurma alıb yeyirik, bunların tullantılarının yeri haradır? Əlbəttə ki, küçələr, ağacların, güllərin dibi.

Biz nə üçün beləyik? Nə üçün təbiətə sevgimiz yoxdur? Şəhər mədəniyyətindən uzağıq?

İki gün öncə metronun "Koroğlu" stansiyasının çıxışında gördüyüm mənzərə bütün bunları söyləməyimə o qədər stimul verir ki, deyə bilmərəm. Ətrafda hara baxırsan, istirahət parkı, yaşıllıqlar, ağaclar, səliqə-sahman, skamyalar... İnsanların istirahəti üçün hər cür şərait yaradılıb. Addımbaşı tullantı qabları qoyulub. Lakin gəl, bu şəhərin gününə bax. Gəl, bu şəhərdəki ağacların acı taleyi ilə tanış ol.







Gəlin, görək, dünyanın daha hansı şəhərinə bizim bu şəhərimizə etdiyimiz sitəm edilir? Tək "Koroğlu"dan söhbət getmir. Hər yer belədir. Harada ki, biz insanlar varıq, orada təbiət zərər görür.

Yeyirik, atırıq, çəkirik, atırıq, içirik, atırıq. Bəs görəsən tullantı qutuları nə üçündür? Kim bizə ixtiyar verir ki, bu şəhərə, bu şəhərin təbiətinə bu qədər ziyan vuraq?

Parka gedirsən, iki gənc əyləşib-qız, oğlan. Tum çırtlayıb tökürlər ayaqlarının altına. Bir qədər o tərəfə gedirsən, biri suyu içib, butulkanı şappıltı ilə atdı yerə. Bir qədər aralıda biri dondurmanı yedi, tullantı qutusunun yanından keçib, qabığı atdı gül kollarının dibinə.

Bəs nə vaxtadək biz həm özümüzə, həm də tökdüklərimizi əyilib gün boyu təmizləyən küçə xidmətçilərinə qarşı hörmətsizlik sərgiləyəcəyik? Nə vaxt ürəyimizə bir azacıq ədalət gələcək ki, axı bizim yerə atdıqlarımız qədər əyilib onu götürənlər var. Onların yaşı da az deyil. Baxırsan ki, yaşlı qadın, kişidir, əlində süpürgə-xəkəndaz, süpürür, götürür. Yazıq gedir parkın o başına, qayıdanda görür ki, həmən həməndir.

Yəni fikirləşəndə heç də təzə nə isə danışmıram burada. Buyurun, şəkillərə baxın və bizim təbiət sevgimizlə, şəhər mədəniyyətimizlə bir daha tanış olun.

Bəlkə nə isə etmək lazımdı? Bəlkə kim isə elə bir təklif edə bilər ki, şəhərimizdə bu kimi mənzərələrin qarşısı alınar? Düşünürəm ki, buna bizim ehtiyacımız var. İnşallah, belə bir adam öz yenilikçi ideya və təşəbbüsləri ilə ortaya çıxacaq və belələrini durduracaq

***Mətanət Məmmədova***

# Ermənilərin uyduqduqları YALANLARIN SONU



Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycana qarşı təxribat xarakterli bəyanatlar səsləndirməsi hər zaman olduğu kimi, onun daxili auditoriyaya hesablanan addımdır. Onun Bakıya əsas iddiaları Laçın yolu ilə bağlıdır və bu iddiaları ilə özünü guya mübarizə aparan kimi göstərmək istəyir. "Qarabağdakı vəziyyətin ən yaxşı həlli Azərbaycanın Laçın dəhlizinin qeyri-qanuni blokadasının götürülməsi, beynəlxalq mexanizm çərçivəsində Xankəndi-Bakı dialoqunun başlanmasıdır", deyən Paşinyan separatçıların və ona qarşı olan müxalifət qüvvələrinin bir növ, könlünü almaq istəyir ki, özünü ittihamlardan qorusun və əlinə keçirdiyi hakimiyyət kürsüsünü də əlində saxlasın.

"Ermənistan sülh gündəliyinə sadiqliyini təsdiqləməkdə davam edir və rəsmi Bakını sülhün bərqərar olması üçün tarixi fürsəti ləğv etməyə yönəlmiş addımlardan çəkinməyə çağırır", deyən erməni baş nazir, öz ənənəsinə sadiq qalaraq, absurd şəkildə çıxış etməklə, reallığa uyğun olmayan axmaq tələblər irəli sürməklə hiyləgərlik edir ki, məhz özünü, öz hakimiyyətini qorusun. Paşinyanın davamlı olaraq eyni uydurmaları təkrarlaması onu deməyə əsas verir ki, o, Ermənistanın illər boyu toxuduğu yalanların torundan xilas ola bilmir və hətta bu tordan necə qurtaracağı barədə təsəvvürü belə yoxdur. Amma erməni baş nazir ondan ehtiyat edir, hətta qorxur ki, ona müxalifətdə olanların, erməni yalanlarını sırımaq istəyənlərin dəyirmanına su tökməsə onun üçün heç də yaxşı olmayacaq. Elə zənn edir, elə bilir ki, dırnaqarası "blokada" adlı ümumerməni mifinə dəstək verməsə, kortəbii etirazlardan yayınmaq və ələ keçirdiyi hakimiyyətini qoruyub saxlamaq mümkün olmayacaq. Nikol ona görə bu qənaətdədir ki, kiminsə xalqı ayağa qaldırıb, hakimiyyəti devirməyə apara bilməsi barədə özünün də təcrübəsi var, axı şəxsən özü də bir vaxtlar bu yolla Ermənistanda hakimiyyəti ələ keçirib.










İndi işğalçı ölkənin təkcə baş naziri deyil, ümumilikdə mövcud hakimiyyəti də daxili auditoruyaya hesablanan çıxışlar edir və mövqeyini də buna uyğun seçir. Düzdür, danışıqları uzatmağın mənasızlığını Paşinyan da, onun hakimiyyət komandası da yaxşı başa düşür. Baş nazir özü hamıdan yaxşı başa düşür ki, gec, yaxud da tez sülh barəsində danışıqlara getməlidir və danışıqlar zamanı da Azərbaycanın haqlı tələbləri ilə razılaşmaq onun üçün ən doğru və hətta ən asan yoldur. Əgər bu asan yolun əvəzinə özünü çətin duruma salırsa, məsələni uzadırsa, deməli, erməni xislətinə uyğun şəkildə hiyləgərlik edir və məqsədi də elə hay hayasızlığı ilə əlinə keçirdiyini qamarlamaq, hakimiyyətini əldən verməməkdir. Amma əlbəttə ki, hakimiyyətini əlində saxlamaq üçün onun himayədarlarının dəstəyinin vacibliyini də bilir, xalqın etirazının qarşısında dayana bilməyəcəyinin də. Ona görə də bu hiyləgər baş nazir öz xatirinə bir növ şəraitə uyğun hərəkət edir. Lakin bu, erməni cəmiyyətinə, Ermənistana yaxşı heç nə vəd etmir.

Vovayeviç bilir ki, gec-tez Azərbaycanla sülh müqaviləsi imzalamalı və Qarabağı rəsmən tanımalı olacaq. Bilir ki, bunun reallaşması elə də uzaq bir zamanda baş verməyəcək, daha düşündükləri kimi, məsələni uzada bilməyəcək. Yaxşı başa düşür ki, Bakı danışıqları daha 30 il gözləmək fikrində, niyyətində deyil. Anlayır ki, Azərbaycan hər an öz ərazisini Qarabağdakı erməni quldur dəstələrindən təmizləyə bilər. Bunun qarşısını almaq üçün isə Ermənistanın gücü yoxdur. Elə isə, Paşinyana yeni müharibə lazımdırmı? Bir də rüsvayçı məğlubiyyətlə qarşılaşmaq istəyərmi? Əlbəttə ki, istəməz. O zaman sual yaranır ki, niyə bəs Nikol məsələni uzadır, çətinləşdirir. Bu sual da elə məsələnin mahiyyətini açıb ortaya qoyur və yuxarıda sadalananları təsdiqləyir. Təsdir edir ki, Nikol Paşinyan uzun müddətdir ortaya atılmış, guya sülhə hazır olduğunu nümayiş etdirmək, beynəlxalq ictimaiyyəti Azərbaycanın əleyhinə qaldırmaq, iqtisadi və siyasi bonuslar üçün bazarlıq etmək məqsədi ilə Qərbə üz tutmaq, Rusiyanı qıcıqlandıraraq məsələyə müdaxilə etməyə sövq etmək, kimi oyunları davam etdirmək məcburiyyətində qalıb.

Yoxsul Ermənistanın Qərbə lazım olmadığını başa düşən Nikol Paşinyan ölkəsinin Aİ və ya NATO-ya daxil olması perspektivinin də sıfıra bərabər olduğunu anlayır. Xarici havadarları, məsələn madam Pelosi, Makron bacısı kimi kimlərsə ona qızıldan dağlar vəd etsələr də bunların mənasız olduğunu Nikol yaxşı bilir. Amma bu erməni baş naziri guya Laçınla bağlı canfəşanlıq etdiyini daxili auditoriyaya nümayiş etdirir ki, öz dərisini və kürsüsünü qorusun. Los-Anceles ermənilərinin "Laçın dəhlizinin blokadasını götürmək və Dağlıq Qarabağda humanitar böhranın qarşısını almaq" tələbi ilə keçirdiyi aksiyanın fonunda belə Nikol Paşinyan vaxtı üzatmaqdan başqa nəyə isə ümid etmir. Bilir ki, etirazçıların erməni iddialarının tanınmış lobbiçisi, konqresmen Adam Şiffin müdaxiləsini tələb etməsi də başqa tələbləri kimi olduqca gülüncdür.

Erməni cəmiyyətinə xas olan gülünc məqamlar olduqca çoxdur və bu arada xatırlatmaq yerinə düşərdi ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının təcili iclasını da tələb edir. Deməli, ermənilər ancaq tələb edirlər, özü də bütün dünyadan. Nəyi və niyə? Buna, yəni tələb etməyə haqları çatırmı? Deyəsən bu barədə ermənilər arasında bir dənə də olsa düşünən olmayıb və heç düşünmək barədə fikirləri də yoxdur. Çünki fikir tamamilə başqa istiqamətə yönəldilib. Rəsmi İrəvan ancaq danışıqlar prosesini pozur və diqqət də buna ayrılıb. Görünən odur ki, Paşinyan bu addımı yalnız bir səbəbdən, daha dəqiq desək, böyük qorxusu səbəbindən atmağa qərar verib. Vəziyyət o həddə çatıb ki, o, sülhə imza atıb-bağlamamağı barədə seçim qarşısında qalıb. Bir tərəfdən yanaşdırda, əgər o, sülhə imza atsa, yaxud bu yolda nörmal şəkildə addımlasa, başına nə gələcəyindən qorxur və bilir ki, bu ona ən yaxşı halda hakimiyyət kürsüsü ilə vidalaşmaq bahasına başa gələcək.

Digər tərəfdən də, sülhə imza atmasa, bu, təkcə Qarabağda deyil, həm də şərti sərhəddə növbəti eskalasiyaya, şərti olaraq, müharibə adlandıracağımız qarşıdurmaya səbəb olar. Bu vəziyyətdə təbii ki, Paşinyanın, ermənilərin zərrə qədər qalib gəlmək şansı yoxdur. Amma müharibəni uduzduqdan sonra Vovayeviçin hakimiyyətdə necə qalmaq təcrübəsi var. Erməni baş nazir elə hesab edir ki, erməni cəmiyyəti ona sülhü imzalamağı bağışlamaz, amma müharibədə uduzmağı bağışlayar. Beləliklə də məlum olur ki, erməni baş nazir xalqının taleyini deyil, yenə də öz şəxsi hakimiyyətini seçir. Əslində, elə tarix boyu erməni xalqı facieləri məhz bu səbəbdən yaşayıb və analoji olaraq, hər zaman şəxsi maraqlar naminə haylar fəlakətlərlə üz-üzə qalıblar.

Fəlakətin əslində nədən ibarət olduğunu dərk edən hərhası bir erməni məsələyə tamam başqa rakursdan, tamam başqa prizmadan yanaşır, həqiqəti etiraf edir və digərlərinə də bunu etiraf etmək çağırışı edir, çünki danışıqlarının, iddialarının mənasız olduğunu anlayır. Məsələn, erməni əsilli "fəal" Artur Osipyan erməniləri bütün dünyanı aldatmağa çalışmamağa çağırıb. O, hətta Ermənistanın 1in.am kanalına müsahibəsində həqiqətin nədən ibarət olduğunu etiraf edib və bu həqiqətləri başqalarının da etiraf etməsi çağırışı ilə çıxış edib. Artur Osipyan Qarabağda heç kimin acından ölmədiyini deyib. Bir sözlə, həmin erməni aclıq olmadığı barədə deməklə, açıq-aşkar şəkildə bildirib ki, dırnaqarası böhran barədə deyilənlər yalandır.

Deməli, heç də separatçı rejim, yaxud elə Ermənistan hakimiyyəti düşünməsin ki, sona qədər əhalini aldada, hayları da yalandan hay-küy salmağa məcbur edə bilərlər. Bunun bir sonu var. Elə həmin erməni fəalın etirafları bu proqnozu verməyə əsas yaradır. Bəli, bu etiraf Qarabağ erməniləri arasında parçalanmanı nümayiş etdirən əlamətdir. Parçalanma, fikir ayrılıqları yaranmaqdadır və bu da normaldır, çünki insanlar sülh içində yaşamaq istəyirlər, amma yalan, mifləşdirilmiş qondarma erməni layihələri buna mane olur. Lakin yalanın da, uydurmanın da bir sonu var və indi erməni cəmiyyətində bunu müşahidə etməkdəyik. Görürük ki, artıq ermənilərin uyduqduqları yalanların sonu çatıb və bunu özləri, öz dilləri ilə etiraf edirlərsə, deməli, əksini fərz etmək belə mümkün deyil.

***İnam Hacıyev***

# Qarpızın insan orqanizminə xeyiri və zərəri

**Bildiyimiz kimi, qarpız dadlı giləmeyvədir. Qarpızın tərkibi də insan sağlamlığı üçün çox faydalıdır.100 qram qarpızın tərkibində 30 kalori var. Eyni zamanda, qarpız, A və C vitaminləri, insan orqanizmi üçün faydalı olan bir çox təbii birləşmələrlə zəngindir.**





100 qram qarpızın tərkibi:
- Kalorilik: 30 kkal;
- Karbohidratlar: 7.5 qram;
- Yağlar: 0.2 qram;
- Zülal: 0.6 qram;
- Sellüloz: 0.4 qram;
- Vitamin A: 569 ME;
- Vitamin C: 8.1 milliqram;
- Xolin: 4.1 milliqram;
- Betain: 0.3 milliqram

Qarpızın tərkibində eyni zamanda E və T vitaminləri, tiamin, riboflavin, niasin, B6 vitamini, foli turşusu, pantoten turşusu, kalsium, dəmir, maqnium, fosfor, kalium, natrium, sink, mis, marqans və selen var.

### Qarpızın insan sağlamlığına faydası

Qarpız yemək orqanizmin su ilə təminatını dəstəkləyir, xərçəngin qarşısını almağa çox kömək edir, iltihabı və oksidləşdirici stresi azaldır, ürəyi sağlamlaşdırır. Qarpızın orqanizmə faydaları aşağıdakılardır:

1. Orqanizmin su təminatını dəstəkləyir. Su qəbul etmək orqanizm üçün çox vacibdir. Maraqlıdır ki, qarpızın 92 faizi sudan ibarətdir.

2. Qarpızın tərkibində bir sıra antioksidantlar var:
- C vitamini;
- Karotinoid;
- Likopin;
- E kukurbitasini.

3. Xərçəngin qarşısını alır.

4.Ürəyin sağlamlığına müsbət təsir edir.

5. Qarpız dəri və saç üçün də faydalıdır. Qarpızın tərkibindəki A və C vitaminləri dəri və saçın sağlamlığı üçün çox vacibdir.

6. Həzmi yaxşılaşdırır.

Qarpızın tərkibində çoxlu su və az miqdarda sellüloz var. Bu isə düzgün qidalanma üçün vacibdir.

### Qarpızın insan sağlamlığına ziyanı

1. Qarpız həm də ishala və həzmlə bağlı digər problemlərə də səbəb ola bilər. Qarpız əla su mənbəyi və qida lifləri mənbəyidir. Amma qarpızı ifrat dərəcədə yemək həzmlə bağlı problemə səbəb ola bilər. Bu sıraya ishal, qarın köpü, meteorizm, qaz və sairə aiddir.

2. Qarpız qlükoza miqdarını artıra bilər. Əgər siz şəkərli diabetdən əziyyət çəkirsinizsə qarpız yeyən zaman icazə verilən qlükoza normasından artıq qlükoza qəbul etmə riski artır.

3. Bədəni həddən artıq su ilə təmin edə bilər və su intoksikasiyasına səbəb ola bilər. Bu zaman isə orqanizm həddən artıq su qəbul etmiş olur.

4.Qarpəz ürək-damar sistemi problemlərinə də səbəb ola bilər. Məlum olduğu kimi, qarpızın tərkibində kalium bol miqdardadır. Bu maddə ürəyimizin sağlamlığına müsbət təsir edir, sümükləri və əzələləri möhkəmləndirir. Amma həddən artıq kalium ürək-damar sistemi problemləri yarada bilər. Bunlar arasında aritmiya, nəbzin zəifləməsi var.



### Gün ərzində nə qədər qarpız yemək olar?

Peşəkar dietoloqların sözlərinə əsasən, 100 qram qarpızın tərkibində 30 kalori var. Nəzərə alsaq ki, qarpız əsasən sudan ibarətdir, deməli, asanlıqla 500 qram yemək olar. Bu isə 150 kalori yemək deməkdir. Eyni zamanda, qarpızın mədə üçün yüngül olduğunu da nəzərə alsaq, çox miqdarda qarpız yeməyin mümkün olduğu da aydın olur. Qarpız qəbul etmək sağlamlıq üçün faydalıdır, amma onu həddən artıq qəbul etmək artıq ziyandır.

### Nəticə

Qarpız insan sağlamlığı üçün kifayət qədər faydalıdır. Onun tərkibində suyun miqdarı çoxdur. Eyni zamanda, orqanizmi likopin və C vitamini də daxil olmaqla bir sıra faydalı maddələrlə təmin edir. Qarpızın tərkibində bu qidalandırıcı maddələrin olması o deməkdir ki, qarpız təkcə dadlı və az kalorili giləmeyvə yox, eyni zamanda sağlamlıq üçün də çox faydalıdır. Amma digər qida məhsullarında olduğu kimi, qarpızı da normadan artıq qəbul etmək olmaz. Çünki həddən artıq qarpız yemək yuxarıda sadalanan fəsadlara səbəb ola bilər.

### Yemişin faydaları və zərərləri

Bildiyimiz kimi, yemiş və ya qovun yay aylarının əvəzolunmaz tərəvəzlərindəndir.

Yemiş yayda sərinlik verən xoş dadıyla hər kəsin sevdiyi bir bitkidir. Böyük yarpaqlı, sarı rəngli çiçəkləri olan yemiş sarmaşıq bitki növüdür. Yemiş dadı ilə hər kəsə xoş təsir bağışladığı kimi, orqanizmə faydaları ilə də məşhurdur. Tərkibində bolluca olan su ilə yanaşı, A və C vitamini ilə də zəngindir. Yod və xrom mineralları baxımından da zəngin bir meyvədir.

### Yemişin faydaları

Yemiş bədəni sərinlədir və rahatlıq verir. Elə bu xüsusiyyətinə görə yayda ən sevilən tərəvəzlərdəndir.

Sidikqovucu xüsusiyyətilə yemiş bağırsaqların da yumşalmasını təmin edərək, qəbizlik probleminə mane olur. Böyrəklərdə qum və daş narahatlığı olan insanlar üçün yemiş çox faydalıdır. Yemiş böyrəklərdəki daş və qumun tökülməsini təmin edir. Qaraciyər tıxanıqlığı olan insanlar yemişi istehlak etməklə bu narahatlıqlarını aradan qaldıra bilərlər.

Yuxusuzluq problemi olan insanlar da yemişi bolluca istehlak etməlidirlər ki, yuxuları bərpa olunsun. Yemişin ac olarkən yeyilməsi isə olduqca faydalıdır.

Yemişin özü kimi tumlarının da faydaları var. Tumların yeyilməsinin daxili yaralar üçün çox böyük faydaları var.

### Yemişin zərərləri

Yemişin tərkibində bol miqdarda şəkər olduğu üçün şəkər xəstələri bu meyvəni diqqətlə istehlak etməlidirlər.

Xora və də həzm sistemi iltihabı olan şəxslərə də yemiş yemək məsləhət görülmür.

Atalarımızın belə bir maraqlı məsəli var: "Hər şeyi normada qəbul etmək insan orqanizminə çox xeyirlidir".

Dahi Nizami Gəncəvinin isə belə bir kəlamı var:

-Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir o da.

Ona görə də gəlin sağlamlığımızı qorumaq üçün hər lazım olan nemətdən miqdarında qəbul edib, faydalanaq.

*Hacı Tahir MƏLİKLİ*

---



Elçin Bayramlı

## Bitməyən eksperimentlər və bitirilən təhsil

### 150 balla ali məktəbə qəbul başdan-ayağa rəzalətdir, dövlət təhsilə biznes marağından baxmamalıdır

**Ali məktəblərə ixtisas seçimi başlayır. Dövlət İmtahan Mərkəzinin rəhbəri Məleykə Abbaszadə deyib ki, 150 bal və daha yüksək nəticə göstərən abituriyentlər blok imtahanında 50 baldan yüksək nəticə göstərirlərsə, onlar da müsabiqəyə buraxılırlar.**

Hər il qəbul imtahanları, ixtisas seçimi ilə bağlı yeni bir eksperiment aparırlar və hər biri də effektsiz olur təhsilin inkişafı kompleks yanaşma tələb edir. Problem odur ki, Azərbaycanda orta məktəb təhsili sıradan çıxıb. Orta məktəblərdə oxuyan şagirdlərin repetitorsuz, hazırlıq kursuna getmədən ali məktəbə qəbul olması mümkün deyil. Beləliklə, valideynlər həm uşaqların məktəb xərclərini çəkir, həm də ayda 300-500 manat əlavə xərc çəkib uşağını əlavə müəllim yanına, kurslara göndərir. Buna görə də, əvvəl orta məktəblərdə təhsil sistemi qaydaya salınmalıdır. Qəbul imtahanları, plan yerləri hamısı sonranın işidir. Orta təhsil proqramını orta səviyyədə mənimsəyən uşaqlar üçün ali məktəbə qəbul problem deyil. Hər biri normal bal toplayacaq, universitetdə də öz üzərində işləyib seçdiyi ixtisas üzrə biliklərini təkmilləşdirəcək.

Təhsil sistemi üzərində eksperimentlərə son qoyulmalıdır. Əgər uğurlu bir sistem yarada bilmirlərsə, Finlandiya, Yaponiya kimi mükəmməl təhsil sisteminə sahib ölkələrin təcrübəsini götürüb olduğu kimi tətbiq etsinlər. Hər il bir qayda çıxarırlar. Hər ölkədən bir şey götürürlər və o da mövcud sistemə uyğunlaşmır deyə "kaşa" olur".

Keçid balının ildən-ilə aşağı salınması, 150-200 bal toplayan uşaqların universitetə qəbul olması isə başdan-ayağa rəzalətdir. 5 ballıq sistem üzrə 150 bal "1" qiymətinə bərabərdir. Yəni sıfır səviyyəsində biliyi olan insanları ali məktəblərə qəbul etmək gülüncdür. Pul qazanmaq məqsədilə savadsız abituriyentlərə ali təhsil vermək heç bir halda dövlətin, cəmiyyətin xeyrinə deyil.

Mən şəxsən plan yerlərinin artırılmasının tərəfdarıyam. Lakin plan yerləri əmək bazarında ixtisaslara tələbat səviyyəsinə görə tənzimlənməlidir. Bir çox kapitalist ölkələrində olduğu kimi, Azərbaycanda da dövlət ali məktəbləri ödənişli təhsili ləğv etməlidir. Keçid balı isə 350 balın üstündə olsun. Onsuz da orta təhsil bazası olmayan, imtahanda 150-200 toplayan abituriyentlər ali məktəbdə də oxumur, semestr qiymətlərini də pulla yazdırıb, kursdan-kursa keçir. Burada yeganə qazanan universitetlərin biznes marağıdır. Valideynlərin pulu, tələbələrin isə vaxtı boşa gedir. Əgər ali təhsil səviyyəsini beynəlxalq standartlara uyğunlaşdırmaq istəyiriksə, savadlı uşaqları qəbul edib, onları tələbə təqaüdü və yataqxana ilə təmin etmək, üstəlik, lazım olan kitabları da pulsuz vermək lazımdır. Təhsilə biznes sahəsi kimi baxdığımız müddətdə vəziyyət daha da arzuolunmaz hal alacaq.

Biz orta məktəblərdə elə bir sistem yaratmalıyıq ki, repetitorlara ehtiyac qalmasın. Bir sinifdə 30-35 şagird varsa, orada təhsildən söhbət gedə bilməz. Təhsil Nazirliyinin tətbiq etdiyi eksperimentlər, kurikulum sistemi məktəblərdə tamamilə anarxiya və özbaşınalıq yaradıb. İxtisas seçimi zamanı da gənclər az bala yox, bələd olduğu, sevdiyi ixtisaslara meyil etməlidir. Ali məktəb oxumaq adı ilə bəlkə də heç vaxt işləmək istəmədiyi bir ixtisasa qəbul olmaq yersizdir. 55 min tələbəni məzun edib əlinə diplom verməklə iş bitmir. Elə sahə var ki, o istiqamətdə təhsil alan gənclərin sayı tələb olunan kadr potensialından qat-qat artıqdır. Elə sahə də var, çox ciddi kadr çatışmazlığı yaşanmasına rəğmən ixtisaslı mütəxəssis tapmaq olmur. İxtisaslar və plan yerləri əmək bazarına uyğunlaşdırılmalıdır.

# SOS: Anormalı normallaşdırmaq istəyirlər!

*Qiyamətin əlaməti və ya eynicinsli nikahlar təhlükəsi*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*



Serbiya prezidenti Aleksandr Vuçiç dünəndən bəri dünyanın gündəmindədir. O, Serbiyanın prezidenti olduğu müddətdə eynicinsli nikahlara icazə verməyəcəyini bəyan elədi. Prezident heç vaxt eynicinsli nikahlara icazə verən qanunu imzalamayacağını dedi. Vuçiç əlavə edib ki, LGBTİ əhaliyə, mədəni və mənəvi dəyərlərə əhəmiyyət vermir: "Serbiyada prezident olduğum müddətdə kişi və qadından başqa digər cinsin nikahına icazə verən heç bir qanunu imzalamayacam. Amma tək problemimiz bu olmamalıdır. Gəlin ölkənin inkişafını düşünək. Biz ənənəvi cəmiyyətik, öz dəyərlərimiz var, eynicinsli nikaha izin vermədiyim üçün LGBTİ üzvlərindən kiminsə özünü alçaldılmış hiss etməsi məni maraqlandırmır, mən prezident olduğum müddətdə belə bir şey olmayacaq."

Onun dediklərini oxuduqca dünyada bu cür düşünən idarəçilərin olduğuna şükür etməyə bilmədim. Çünki dünyada elə bir axın başladıblar ki, normal ənənələri, münasibətləri müdafiə edən insanları hamı tənqid edir, anormal kimi qələmə verirlər. Elə Vuçiçi də hədəfə alacaqlar, qaralamaq üçün bütün mümkün yolları yoxlayacaqlar. Normalı zorakı olaraq anormallaşdırmaq üçün hər yola baş vuracaqlar. Bir fikirləşin, çox az müddət ərzində qeyri-normal olan bütün davranışlar adi hala çevrildi, anormal bildiyimiz nə varsa cəmiyyət tərəfindən dəstəklənir. Əvvəl bizə anormal gələn çox şey indi tamamilə normal gəlir, hətta əvvəl əksini düşündüyümüz üçün özümüzə təəccüblənirik.

Eynicinsli nikahlara icazə vermək bütün əxlaqi dəyərlərə tüpürmək deməkdir. Onları normallaşdırmaq gələcək cəmiyyətin inkişaf yoluna bomba qoymaq deməkdir. Bunun müzakirəsi belə aparılmamalıdır, mətbuata, efirlərə çıxarılması belə yolverilməzdir. Müzakirə edib normallaşdırmaq belə təhlükəlidir. Necə ki, bir çox ölkədə müzakirə edə-edə normallaşdırdılar. ABŞ Dövlət Departamenti 2015-ci ilin fevral ayından başlayaraq sənədləşdirmədə "ana" və "ata" sözlərini sənədlərdən çıxarıb. Bundan sonra, sənədlərin rəsmiləşdirilməsi üçün ərizə verərkən anketlərdə "valideyn nömrə 1" və "valideyn nömrə 2" qeyd olunacaq. Dövlət Departamenti bu qərarı belə izah edib: "ABŞ-da yaşayan eynicinsli ailələr öz hüquqlarının müdafiəsində möhkəm dayandıqlarından, əvvəlki "ata" və "ana" gender identifikasiyası müasir reallıqla ziddiyyət təşkil edir."



Elə bilirsiniz bizim cəmiyyətdə hər şey normaldır? Bir qisim adam var ki, onlar çoxdan belə bir müzakirə açılmasını gözləyir, onlara qığılcım yetər ki, eynicinsli nikahları normallaşdırsınlar. Efirdə özünə ər, ya arvad axtaranlar, arvadını başqa kişi ilə tutub videosunu çəkib efirdə nümayiş etdirənlər, bir-birinin bütün paxırını milyonların gözü önündə açıb sonra heç nə olmamış kimi həyatlarına davam edənlər - görün nələr normallaşdırılıb bizə sırınır. Biz daha nələr görəcəyik? Daha immunitet yaranıb bədənimizdə, əvvəl bizi dəhşətə gətirən şeylər indi normal gəlir. Qeyri-normal vəziyyətlər normallaşdıqda, anormal davranışlara göstəriləcək reaksiyalar da yoxa çıxır.

Təbii ki, normal evliliyin, ailələrin hazırkı vəziyyətindən narahat olmaq üçün çoxlu səbəblərimiz var. Evlilik nisbətləri aşağı düşüb, boşanmalar pik həddədir, tək valideynli ailələrin və nikahdankənar uşaqların sayı sürətlə artmaqdadır. Hansısa qüvvələr nikahın əhəmiyyətinin azalması, nikahdankənar birgə yaşamanın, nikahdankənar cinsi ələqədə olmağın, nikahdankənar uşaq dünyaya gətirib böyütməyin, nikahın baş ağrısı və vaxt itki olmasının təbliğatını aparır.

Eynicinsli nikahların leqallaşdırılması niyə bu qədər müdafiə edilir, bilirsinizmi? Bütün milli-mənəvi-əxlaqi dəyərləri öldürmək, məhv etmək, silmək üçün. Eyni cinsli evliliklərin sərbəst edilməsi halını təsəvvür edin. İnsanlar hər cür abırsızlığa qol qoyacaq. Əmin olun, öz iti ilə evlənənlər də olacaq. İtlərin pasportu olduğu üçün bu, o qədər də imkansız olmayacaq. Bəli, qiyamət çox yaxındır. Qır qazanı, qıl körpüsü-bunlar hamısı boş şeylərdir, əsas qiyamət iki əcaib insanla bir evdə böyüyən uşağın darmadağın olmuş, təcavüz olunmuş psixologiyasında baş verir! Çox "məntiqli" qərardır, uşaq iki arvad qılıqlı adama ata-ana yerinə "valideyn 1", "valideyn 2" deyə müraciət edəcək. Bu, ailə deyil, bu, nikah deyil, evliliyin yeganə etibarlı növü, dövlətin bu birlikdəliyi təsdiqlədiyi, qanunların tanıdığı nikahlardır. Eynicinsli evlilik məsələsinin təbliğat mexanizmi olmamaq üçün mətbuatın, media orqanlarının üzərinə böyük məsuliyyət düşür. Bu cür müzakirələrin aparılmasına imkan verməməli, normallaşdırılmasına etiraz etməliyik.



Yaradılışın qanunudur, təkamül ağacı hər zaman hər hansı bir "azlıq" qrupunun hüquqlarını "çoxluq" mövqeyində olanlara qarşı müdafiə edir. Şərait, şərtlər, imkanlar buna təkan verir. Dini azlıqlar çoxluğa qarşı müdafiə olunur, milli azlıqlar çoxluğa qarşı müdafiə olunur və bunlar normaldır. Lakin normal ailə münasibətlərini kənarlaşdırılıb əvəzində heç bir əxlaqi dəyərə, mənəvi normalara sığmayan qadının qadınla, kişinin kişi ilə evliliyi normallaşdırılır. Bu, təhlükənin ilk sədasıdır, zəlzələnin ilk titrəyişidir, sunamidən öncəki çör-çöp axınıdır. Bu hələ jurnaldır, kino hələ qabaqdadır...

**Lalə Mehralı**

MÜTƏXƏSSİS DANIŞDI

# Günvurmadan əziyyət çəkməmək üçün...

"Hazırda yay mövsümüdür və kəskin istilər bir neçə gündür davam edir. Belə havalarda günvurmadan əziyyət çəkənlər çoxalır. Günvurmadan həssas olan qrupa uşaqlar, immun sistemi aşağı olan şəxslər, yaşlılar və xroniki xəstəlikləri olan insanlar aiddir. Belə insanlar ilk növbədə mümkün qədər açıq günəş altında olmamalı və xüsusilə də saat 11:00-17:00 aralığında diqqətli olmalıdırlar". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova deyib.

Onun sözlərinə görə, bu cür kəskin istilərin hökm sürdüyü günlərdə həssas insanlara havaya çıxmamağı tövsiyə edirik: "Çünki bəzi insanlarda günvurma yüngül və orta dərəcədə olsa belə, həssas insanlarda ağır



dərəcəyə çatır və xoşagəlməz hallar ilə sonlanır.

Ümumi zəiflik, iştahsızlıq, baş ağrısı və zəif ürəkbulanma varsa, bu günvurmanın yüngül formasıdır və sərin bir yerə keçərək problemin qarşısını almaq olar. Ancaq günvurma daha ciddi şəkildə baş verdikdə əlamətləri huşunu itirmə, göz bəbəyinin genişlənməsi, ətrafda baş verənlərə reaksiya verə bilməmək və hərəkətlərdə nizamsızlıq kimi səciyyələnir. Hətta şiddətli günvurma zamanı bədən temperaturu 39-41 dərəcəyə qədər yüksəlir. Belə olan halda isə ciddi şəkildə tədbir görmək lazımdır və həkimə müraciət edilməlidir. Bundan əlavə sinə və alın nahiyəsi yaş dəsmal ilə bədən temperaturunu aşağı salmaq lazımdır. Yay mövsümündə günvurmadan əziyyət çəkməmək üçün həm də düzgün geyim seçmək lazımdır. Sıx, dar olmayan, pampıq və katan geyimlərə üstünlük verilməlidir. Eyni zamanda açıq rəngli geyinmək və papaqdan istifadə tövsiyə edilir".



**Səbinə Hüseynli**

SON SƏHİFƏ
SƏS
15 avqust
2023-cü il

# Türkəçarə öldürür, yoxsa sağaldır?

İnsanlığın tarixi qədər təbii təbabətin də tarixi var, ilk insanın var olduğu gün elə bitkilərlə müalicə də yaranıb. Təəssüf ki, zamanla bu elm aşınmaya məruz qalaraq bizə çox cüzi hissəsi gəlib çatıb. Amma indi məlum olan təbii təbabət elmi də cılız deyil, əksinə, bu sahənin biliciləri təbii təbabəti dərya adlandırırlar. Tibb elminin sürətli inkişafı təbii təbabəti "alternativ tibb" kimi bir küncə sıxışdırsa da, bu gün dərmanla müalicəyə üstünlük verənlər qədər təbii təbabətin faydalarından yararlananlar da var.



## Alternativ tibbin hünəri

Döyüş meydanında yaralanan döyüşçünün yarasına tütün tökmək, infeksiya əleyhinə olan otları əzib bağlamaq hələ 100 illər qabaqlar insanlara məlum idi. Zamanla həm daxili, həm də xarici yaralara bitkilərin gücü ilə qalib gələn insanlar bu elmin bilicilərinə çevrilirlər. İndi bir çox məşhur xəstəliyə tibbin özü əlac edə bilməyəndə təbii təbabət köməyə yetişir.

Alternativ təbabət deyildikdə həm bitkilər, həm də bəzi həşaratların köməyi ilə aparılan müalicələr nəzərdə tutulur. Alternativ təbabət arasında ən çox yayılanı bitkilərlə müalicə hesab edilir. Dünyada yalnız Almaniyada institut səviyyəsində araşdırılan bu elm bir müalicə metodu olmaqla yanaşı, tibbin inkişafına da yaxından kömək edir. Özəlliklə son illər genetik dəyişikliyə uğramış qidaların insan orqanizmində yaratdığı fəsadları aradan qaldırmaqda müxtəlif otlardan istifadə edilir. Bütün bitkilər tərkibindəki təbii maddələrə görə müxtəlif xəstəliklərin müalicəsində istifadə edilə bilər. İndi xərçəng, şəkərli diabet, mədə xorası, hepatit, ürək, revmatizm, on iki barmaq bağırsağın problemləri, qaraciyərin serrozu, qan-damar xəstəliklərinin müaciləsində bitkilərin köməyi ilə müalicə müsbət effekt verir. Bitkilərlə müalicənin üstün tərəfi odur ki, yalnız xəstə olan yox, tamamilə sağlam insanlar da ondan istifadə edərək sağlamlıqlarını qoruya bilərlər.

## Bir qədər ehtiyatlı davranın

Axır illərin ən məşhur reklam çarxları olan "bitki tərkibli dərman" şüarlı təbliğatlarda hər hansı bir bitkinin hər hansı bir xəstəliyə xeyirli olmasından ətraflı danışılır. Amma bu elmin biliciləri deyir ki, bəzən tək bir meyvə, tək bir ot bir xəstəliyin sağalması üçün yetərli olmaya bilər. İmmun sistemini qüvvədə saxlamaq üçün xəstəyə müxtəlif otların kombinasiyasını içirmək lazımdır, bu qarışımlar xəstəyə özəl olaraq təyin edilməlidir. Çünki elə xəstə var ki, qan təzyiqi aşağıdır və bir çox bitkilərin təzyiqi salma özəlliyi var. Bu səbəbdən də bu cür xəstələrə təzyiqi stabil tutan otların qarışımı ilə müalicə təyin etmək lazım gəlir.

Əgər siz hər hansı bir bitki ilə özünüzü müalicə etmək fikrinə düşmüsünüzsə, əvvəlcə o bitkini yaxşıca araşdırıb hansı xəstəliklərə xeyirli, hansına əks-göstərişli olduğuna aydınlaşdırın. Yaxşı olar ki, bunu təbii təbabətin biliciləri ilə məsləhət edəsiniz. Ola bilər ki, sizin xəstəliyinizin müalicəsində bitkilərin köməyi yetərli olmasın, ona görə modern tibbin imkanlarından istifadə etməyi də unutmayın. Diaqnoz ilə hər hansı bir xəstəliyinizi dəqiqləşdirəndə tibbin köməyindən istifadə ilə yanaşı, alternativ tibbi də gözdən keçirin. Ancaq unutmayın ki, modern tibb kimi alternativ tibbdə də erkən diaqnoz böyük önəm daşıyır.

## Hər dərdə dərman Azərbaycan

Xoşbəxtlikdən Azərbaycan elə bir iqlim qurşağında yerləşir ki, təbii təbabət üçün lazımlı olan bütün otlar yetişir. Lap "Müsyö Jordan"nın dediyi kimi, bura tam bir bitki cənnətidir. Otundan qanqalınadək hər bitkisi min bir dərdə dəva olan Azərbaycan bu xüsusiyyətinə görə bütün dünyada tanınır, gözəl Qarabağ isə şəfalı bitkilərin məskənidir.

Ümumiyyətlə, Azərbaycanda qədimdən bəri təbii üsullarla müalicə metodları mövcud olub. Təbiblər insanın müxtəlif xəstəliklərini elə təbiətin öz gücü ilə - heyvanlar, həşaratlar, sürünənlər, bitkilərlə müalicə edib. Amma türkəçarənin də öldürə biləcəyi insanlar, sağalda bilməyəcəyi xəstəliklər var. Qeyd etdiyimiz kimi, haradasa bütün xəstəliklərin müalicəsində təyini mümkün olan alternativ tibbi sizə tətbiq edənin bu sahədə yetəri qədər biliyinin olmasına diqqət edin. Modern tibb qədər alternativ tibb də düzgün təyin edilmədikdə qarşısıalınmaz problemlərə yol aça bilər.

## Daha hansı alternativlər var?

Bu gün dünyada psixoloji problem yaşayan kifayət qədər çox insan var. Bir çox Avropa ölkəsində psixi problemi olan insanlara delfinlərlə ünsiyyət məsləhət görülür, delfinlə üzmək, əylənmək insanı bütün psixotrop dərmanlardan daha yaxşı müalicə edir. Əksər şərq ölkəsində zəhərsiz və ya zəhər dişi çıxarılmış ilanları çılpaq soyunmuş pasiyentin bədəninə buraxırlar. Pasiyent ilanlardan qorxmamalı, sakitliyini qorumalıdır. Əks halda ilanlar qəzəblənə və boğaza dolanaraq nəfəs almağa mane ola, hətta pasiyenti boğaraq öldürə bilərlər.

Qədim Çində, Tibetdə istifadə edilən bir başqa tibbi üsul da zəlilər idi. Zəlilər dövrün həkimlərinin bir çox xəstəliyə səbəb olduğunu düşündükləri çirkli qanı çəkmək üçün istifadə edilirdi. Müasir tibbdə, zəlilərə rekonstraktif cərrahiyyədə, ürək qüsurları, ürəyin işemik ritmi, stenokardiya, maddələr mübadiləsinin pozuntusu, sonsuzluq, qan və qan dövranı problemləri, cinsi yolla yoluxan infeksiyalar, xroniki iltihab prosesləri, osteoxandroz, uroloji, ağ ciyər, qara ciyər, mədə-bağırsaq, cinsi sfera, ginekoloji, revmatizm, dəri və bir sıra digər xəstəliklər zamanı tətbiq edilir. Zəli yeganə vasitədir ki, hətta ölmüş sinir hüceyrələrini də bərpa edə bilir.

## Hər bitki bir dərman, hər dərman bir ömür

Təbii mirvari tozunun dəri xərçəngini yox etdiyini bilirdinizmi? Ənənəvi Çin təbabətində parçalanan mirvarilər əvvəl toz halına gətirilir, daha sonra bu toz sadə tərkibli təbii kremlə qarışdırılır və dəriyə tətbiq edilir. Mirvari tozu nəinki xərçəngi müalicə edir, o cümlədən dərini əbədicavan saxlayır. Əsl mirvari istifadə edən qadınların boyun nahiyəsində qırışların yaranmaması da məhz bu səbəbdəndir.

Dövrümüzdə ən adi insan tərəfindən ev üsulu müalicə metodları istifadə edilməkdədir. Məsələn, yanıq yerinə kartof qabığı qoyulması, qızdırmanı salmaq üçün gicitkənlə, keçi piyi və sirkə ilə bədənin ovulması, ayaq altına spirt çəkilməsi, ilan zəhərinin təsirinin öldürülməsi üçün dişlənmiş bölgəyə sirkə ilə gicitkən şirəsinin qarışığının tökülməsi, babasilin müalicəsində keçi piyinin tətbiqi kimi bir çox türkəçarələr mövcuddur.

Keçmişdə taun, cüzam, vəba kimi xəstəliklər qədər təhlükəli hesab edilən, "incə xəstəlik" adı verilən və dövrümüzün də ən çox yoluxan xəstəliklərindən biri olan vərəm də limon, bal və sarımsağın qarışığından əmələ gələn xüsusi dərmanla müalicə edilirdi. Bu dərman nəinki vərəmi sağaldır, eləcə də bütün orqanizmin şlaklardan təmizlənməsinə kömək edir. Bütün hallarda ciddi xəstəliyi təbii təbabətin vasitəsi ilə müalicə etməzdən əvvəl təbiblərdən lazımı məsləhəti almaq, otların əks-təsirlərini dəqiqliklə öyrənmək vacibdir.

*Lalə Mehralı*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## ELAN

**Sabunçu rayonu, Pirşağı qəsəbəsində yaşayan Abbasov Rəşad Feyzi oğluna məxsus, 2 saylı Dəmiryol Peşə Litseyi tərəfindən verilmiş 814638 N-li diplomu itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000


*PSİXOLOQ İZAH ETDİ*

# Daxili konflikt nədir?

"Daxili konflikt insanın başqaları və özü ilə mübahisəsidir. Bu mübahisələrdə şəxs zehni və mənəvi olaraq bir neçə yerə bölünür". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Leylə Əli deyib.

Onun sözlərinə görə, konfliktin dərəcəsindən asılı olaraq zaman-zaman, bəzən isə daimi olaraq özü ilə davada olur: "Bəs bu mübahisə özünü necə büruzə verir? Psixologiya elmi daxili konfliktin 4 əsas tipini fərqləndirir. Emosional sfera. Emosional sferada daxili münaqişə özünü ciddi mənfi təcrübələr və psixo-emosional gərginlik yolu ilə büruzə verir- depressiya, stress, apatiya, həyata marağın itməsi və s.

Koqnitiv sfera. Koqnitiv sferada daxili münaqişə insanın özünü dərk etməsində baş verən narahatlıqlar vasitəsilə özünü büruzə verir. Özünə hörmətin azalması, seçim və qərar qəbul etmədə çətinliklər, insanın niyyətləri, arzu və prinsiplərinə dair şübhələr və s.



Davranış sferası. Davranış sferasında daxili münaqişə özünü davranışda mənfi dəyişikliklər vasitəsilə büruzə verir. Ünsiyyətin, məhsuldarlığın və fəaliyyətin keyfiyyətinin azalması, insanın öz fəaliyyətindən narazılığı və s. İnteqral göstəricilər sferası özünü insan psixikasında kompleks pozulmalar ilə göstərir. Emosional və psixoloji gərginliklərin artması, adaptasiya mexanizmində yaranan narahatlıqlar, insanın şəraitə uyğunlaşma qabiliyyətində uzunmüddətli narahatlıqlar və s. buraya aiddir. Hansı sferada olmasından asılı olmayaraq daxili konflikt mütləq mütəxəssis köməyi ilə aradan qaldırılmalıdır. Çünki digər şəxslərlə münaqişədən daha çox daxili konfliktlər insanın mənəvi sağlığına ciddi zərər vurur".

*Ayşən Vəli*